AYAZ İMRANOĞLU

# ƏLLİ YAŞIN MÜBARƏK, VƏTƏN OĞLU

Bakı – 2016

Kitabın ərsəyə gəlməsində göstərdiyi maddi və mənəvi dəstəyə görə Elman Nuriyevin həyat yoldaşı Könül xanıma, oğlu Şahmurad və qızı Şahnisəyə təşəkkürümü bildirirəm.

*Müəllif*

Məsləhətçi: **Adil Qəhrəmanov**
İdeya müəllifləri: **Şahmurad və Şahnisə Nuriyevlər**
Redaktor: **Mütəllim Həsənov**
Korrektor: **Şahnisə Elman qızı**

Ayaz İmranoğlu "Əlli yaşın mübarək, Vətən oğlu"
Bakı, "MBM", 2016, 112 səh.

ISBN 978-9952-29-121-6

© A.İmranoğlu
Bakı, "MBM"

# 50 YAŞIN ROMANTİKASI

*Biz yalnız başqaları üçün yaşayan zaman özümüz üçün yaşayırıq.*
*(L. Tolstoy)*

İnsan dünyaya gəlişi ilə bir ailəyə, bir elə, ulusa, ən nəhayət bəşəriyyətə sevinc bəxş edir. Gəlişi ilə dünyanın özünü heyrətləndirməyi bacarır. Böyüyür, boya-başa çatır, böyüdükcə özü ilə bərabər istək və arzuları da pardaxlanır, inkişaf edir. Bax beləcə arzuların qanadında yüksələ-yüksələ küllü-aləmə qarışır, onu kəşf edir, bilik və bacarığını istehsalatın müəyyən sahələrinə tətbiq edə-edə yaşadığı mühiti daha da gözəlləşdirir, ondan zövq alır. Bu gözəlliklər fonunda öz həyatına da yeni çalarlar qatır. İnam və ümidlə həyata boylanır, gördüyü xeyirxah əməlləri ilə qürur hissi duyur, sevinir. Beləliklə, zaman-zaman ucalıqlara can atır, bu qısa ömür kəsiyində qartal ömrü yaşamaq istəyi alışıb yanır. Ucaldıqca cəmiyyətin fəal bir üzvünə, onu əhatə edənlərin sevimlisinə, örnəyə çevrilir. Amalı, ömür kredosu

ilə yaddaşlara pozulmaz-silinməz naxışlar salır. Nəslinin, boya-başa çatdığı kəndin, sevimli müəllimlərinin dərin sevgisini qazanan Elman Yolçu oğlu Nuriyev kimi. Sazın-sözün beşiyi Qazaxdan başlanan ömür yolunun sarbanına çevrilən Elman adi kənd uşaqlarına xas olan keyfiyyətləri ilə diqqəti çəkir. O da tay-tuşları kimi uşaq ikən qoyun-quzu otarır, zəhmətə qatlaşır, təsərrüfat işlərində valideyinlərinə yardımçı olur. Elə o zamandan əməyin şan-şərəf işi olduğunu bütün varlığı ilə duyur. Amma bütün bunlara baxmayaraq oxumaq, ali təhsil almaq istəyi onu bir an da olsun tərk etmir. Orta məktəbi müvəffəqiyyətlə bitirib, ali məktəbə daxil olur. İstehsalat təcrübəsində olarkən burada işləyən Könül adlı bir qızla tanış olur. Sonradan təyinatını həmin istehsalat təcürbəsində olduğu kombinata – Zərif Mahmud Kombinatına alır. Tanış olduğu Könül xanımla ailə həyatı qurur. İki övladı dünyaya gəlir; Şahnisə və Şahmurad.

Elman Nuriyev harada olursa-olsun səmimiliyi, qayğıkeşliyi, işgüzarlığı, hər şeydən əvvəl vətənpərvərliyi ilə onu əhatə edənlərin dərin hörmətini qazanır, böyük nüfuz sahibinə çevrilir.

Qarabağ savaşı başlayanda o da həmyaşıdları - vətən, el-oba təshibi çəkən yoldaşları ilə birlikdə silaha sarılır. Şərəfli döyüş yolu keçir. Bölük komandiri olaraq tabeliyində olan silahdaşları ilə birlikdə düşmənə qan uddurur. Əsgərlərin sevimlisinə çevrilir. Dinc əhali onun bölüyünə güvənərək sərhəd kəndlərində rahat nəfəs alır, dinc quruculuq işləri ilə məşğul olur.

Elman Nuriyev təkcə Qazaxın deyil, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarında hərbi döyüş yolu keçir. Düşmənə ağır zərbələr endirir.

Müəllif bütün bunları yalnız təxəyyülünün məhsulu kimi ortaya qoymur. Elmanın döyüş dostları ilə görüşür. Asəf Rzayev, Aydın Məmmədov, Adil Qəhrəmanov və b. xatirələrinə söykənir. "Azərbaycan Ordusu" qəzetinin müxbiri, kiçik leytenant İlham Xudiyevin 9 sentyabr 1993-cü il tarixdə eyniadlı qəzetdə çap edilmiş "Düşməni körpüdən buraxmaq olmazdı...", "Sərhəd" qəzetinin əməkdaşı İ. İsmayılovun həmin qəzetdə dərc olunmuş "Keçmiş PDM bölüyü komandiri Elman Nuriyevin döyüş xatirələri" və b. qəzetlərdə onun haqqında çap olunmuş məqalələrinə istinadən qələmə alır.

Kitabı oxuyarkən elə düşünürsən ki, Ayaz

İmranoğlu sanki bu hadisələrin içərisində olub. Lakin yazıçı özündən asılı olmayan səbəblərdən əsərdə bəzi faktları təkrarlamaq məcburiyyətində qalır. Bu da ayrı-ayrı adamların söhbətlərində özünü büruzə verir. Lakin buna baxmayaraq, kitabın dili sadə, şirin və oxunaqlıdır. Yığcamlıq, ifadəlilik, söz və ifadələrin yerli-yerində işlədilməsi kitabın əsas məziyyətlərindəndir.

Kitab Elman Nuriyevin yubiley yaşına həsr edilsə də, yazıçı tarixi-xronologiyanı gözləməklə qəhrəmanın 50 illik həyat salnaməsini səbrlə araşdırır. Bir insan ömrünün romantikasını bədii detallar vasitəsi ilə əks etdirməyə müvəffəq olur. Bütün bunları isə müəllifin yaradıcılıq uğuru kimi dəyərləndirmək lazımdır.

Biz də öz növbəmizdə Elman Nuriyevə gələcək işlərində uğurlar diləyir, ailə üzvləri, dostları, qohum-qardaşları, əzizləri və müəlliflə birlikdə 100 yaşın tonqalı ətrafında toplaşmağı arzulayırıq.

***Mütəllim Həsənov***
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü. "Həsən Bəy Zərdabi" adına media mükafatı laureatı.*

# SÖZÖNÜ

Səhəri çox erkən yuxudan durmuşdum. Evimin balkonuna çıxıb təzə günün havasını çiyərlərimə çəkirdim. Qonşu binanın balkonundan dalğalanan üçrəngli bayrağımız bu səhər daha çox qürurverici görünürdü.

Bu səhər başqa səhərlərə oxşamırdı. Yaxınlıqdakı bağdan quşların cəh-cəh səsləri, ağacların, gülün-çiçəyin tez yaşıllaşması şəhərimizə gözəllik yaşadırdı. Bir azdan yağan narın yağış damcıları da sanki şəhərin kirini-pasağını təmizləyirdi. Vətən səhəri sevincli idi. Yerdə, göydə elə bil Azərbaycan Ordusunun qələbə payını bayram edirdi.

Bu sevincdən, bu qələbədən ona da pay düşür. İnanıram ki, o da evində ailəsi ilə birgə, ətrafındakı doğmaları ilə qələbə şərbətini nuş edir. Və buna onun haqqı çatır...

2016-ci ilin aprel ayının ilk ongünlüyüydü. Ayın əvvəlində Azərbaycan Ordusu erməni işğalçılarının həmlələrinin qarşısını mərdliklə alıb əks-hücuma keçmiş düşmənə güclü zərbə vuraraq

onları 10 kilometr geri oturtmuşdu. Bu zaman işğal altında olan neçə-neçə kəndimiz və strateji əhəmiyyətli yüksəklik yağıdan azad olunmuşdu.

...Azərbaycan Ordusu xalqımıza qələbə sevinci yaşatmışdı. Onlarla vətən övladı bu dörd günlük müharibədə şəhid olmuşdu. İnsanlar şəhidlərimizi vətən bayrağına büküb izdaham seli ilə dəfn edirdilər. Kədərə üzülsələr də qələbə havası onları qürurlandırırdı.

22 ildir ki, xalqımız bu həsrətə tamarzı idi. Ona görə mən də, bu qələbə soraqlı günlərə nəsə yazmaq könlünə düşdüm. Şeir olacaq, hekayəmi...?! Hələ deyə bilmirəm.

Bu zaman Elman Nuriyev yadıma düşdü. Keçmiş döyüşçü. Birinci Qarabağ savaşına könüllü qatılıb, şərəfli döyüş yolu keçmiş bu vətənpərvər vətən oğlu ömrünün altı ilindən çoxunu səngərdə keçirmişdir. Ondan yazmağım daha gözəl olar deyib, qələmə sarıldım. Axı, bu qələbədən ona da pay düşür.

Qələm də süngüyə çevrilə bilirmiş. Qələm də döyüşə bilir. Düşmənin tamahlı gözlərini ovub yerində oturda bilirmiş. Qələm də deyə bilir özünün olmadığına göz dikmə.

Elə istəyirdim ki, indi onun yanında olub üçrəngli al bayrağımızı ona hədiyyə edim. Və deyim "Cəsur döyüşçü, bu sənin haqqındır". Edəcəm. Onun doğum günündə vətən bayrağı hədiyyə edəcəm. Axı onun doğum günü yubiley yaşı olacaq. Bu münasibətlə kitab abidə yazılır. Çoxlarına örnək olacaq bu kitab abidənin yetişməkdə olan gənc nəsil üçün stolüstü kitab olacağına inamlıyam. Hələliksə...

# İZLƏR

Bu dünyada hər bir yaradılanın, hər şeyin yaddaşı var, izi var. Yaddaşdı, izdi onları gələcək nəsillərə ötürən. Qazax rayonunun İkinci Şıxlı kəndi yurd olan gündən bəri özündə saysız-hesabsız yaddaşlar, izlər yaşadır. Yaddaşlar nəsildən-nəsilə ötürülür, izlər bu kəndin torpağına, daşına, ağacına, gül-çiçəyinə, yoluna, izinə hopub tarixləşir.

Bir zamanlar bu kəndin ailələrində dünyaya göz açıb, kəndin torpaq yollarında, cığırların da qarğı atlar minib çapan uşaqlar böyüyüb vətənin adlı-sanlı şəxsiyyətlərinə çevrildilər. İşıqlı-ziyalı insanlardı bu kəndin yetirmələri. Onlardan Azərbaycanın və Rusyanın tanınmış hərbiçisi artilleriya generalı Əliağa Şıxlınski, Rusyanın, İranın, Azərbaycanın tanınmış hərbiçisi general-mayor Səməd bəy Şıxlınski, şair Kazım ağa Salik, şair Mustafa ağa Arif, Azərbaycanın Xalq şairi Osman Sarıvəlli, Xalq yazıçısı Mehdi Hüseyn, neft mühəndisi Telman Nəbiyev, sevdiyim xalq yazıçısı İsmayıl Şıxlı və onlarca insanı nümunə gətirmək olar ki, onlar bu kəndin bətnindən çıxıb

dünyaya işıq salanlardı.Vətənimizi şana-şöhrətə çatdıranlardı. Azərbaycanımızın boy atmasında onlarında halal haqları var.

İsmayıl Şıxlının "Dəli Kür" romanındakı əzəmətli Cahandar ağa obrazı da deyərdim ki, İkinci Şıxlının gerçək izidir. O möhtəşəm kişi sanki bu gün də bu kənddə yaşayır.

Elə haqqında danışmaq istədiyim Elman Nuriyevdə bu kəndin izində - yaddaş kartında yaşayır. Yolçu kişinin ailəsində doğulub boya-başa çatan bu iz əlli ildir ki, yol gəlir. İnnən belədə Tanrı verən ömür payını göz dolusu yaşayacağına inamlıyam.

Hələ neçə onilliklər öncə balaca Elman həmyaşıdları ilə kəndlərindəki qədim yurd yerinin xarabalıqlarında gəzəndə bilməmişdi ki, dədə-babalarının ruhuna qonaqçı olmuşdu. Bu yer Kürlə Anaxatır (Xrami) çayının birləşdiyi yerdə qədim şəhərin xarabalıqları idi. Sonralar Gəncə arxoloji ekspedisiyası tərəfindən aparılan qazıntılar nəticəsində məlum olmuşdu ki, xarabalıqlar bu vaxtadək Tovuz rayonunun ərazisində lokalizə edilən Xunan şəhərinə aiddir.

Elman Nuriyevin ata yurdundan söhbət açmış-

kən qeyd edək ki, İkinci Şıxlı kəndi düzənlikdə yerləşir. Qazax rayonunun mərkəzindən 34 kilometrlik məsafəsindədir. Kənd Gürcüstan Respublikası ilə həmsərhəddir. 1950-ci ilə qədər mövcud olmuş Sarıvəlli və Dəllər kəndlərinin genişlənərək birləşməsi nəticəsində yaranmış və İkinci Şıxlı adlandırılmışdır. 3791 nəfər əhalisi var, 1103 təssərüfatdan ibarətdir. Heyvandarlıqla və əkinçiliklə məşğul olurlar.

Bu gözəl yurdun şəninə çox şeirlər yazılmışdı. İkinci Şıxlıda anadan olmuş, müəllim Ömər Pəkgənoğluda bir şeirində kəndlərini belə vəsf etmişdi:

Mehriban dostlarım, elə bilməyin,
Sadəcə bir sözdü, söhbətdi Şıxlı.
Dağlar vüqarı tək, heç əyilməyən,
Şərəfli, şöhrətli bir kənddi Şıxlı.

Gözəl məskəni var – çölü, çəməni,
Hüsnü heyran edir gəlib gedəni.
Xoş sözün, söhbətin, şerin vətəni,
Şairlər yurdudur, cənnətdir Şıxlı.

Şəhərə bənzəyir kənardan bu kənd,
Evlər mərtəbəli, eyvan aynabənd.
Sakinlər mehriban, dili şəkər, qənd,
Şairlər şəninə şöhrətdir Şıxlı.

Vidadi Saliklə, Şikəstə Şərif,
İncidən incidi, zərifən zərif.
Belə bir diyara nə lazım tərif,
Tükənməz xəzinə, ziynətdi Şıxlı.

Yanında heç nədir qiymətli gövhər,
Qaş-daş ilə yaqut, mədən ilə zər.
Qürbətdə yaşayan bilir, ay Ömər,
Ən əziz, ən şirin nemətdi Şıxlı.

# TƏRCÜMEYİ – HAL

Nuriyev Elman Yolçu oğlu 24 avqust 1966-cı ildə Qazax rayonunun İkinci Şıxlı kəndində zəhmətkeş bir ailədə doğulub. 1973-cü ildə kəndlərindəki orta məktəbin birinci sinfinə getmiş 1983-cü ildə həmin orta məktəbi müvəffəqiyyətlə başa vurmuşdur.

Elman Nuriyev 1985-87-ci illərdə Sovet ordusunda hərbi xidmətdə olmuş, hərbi vəzifə borcunu Zaqafqaziya Hərbi Dairəsində əvvəlcə Gürcüstan, sonra isə Ermənistan respublikalarında keçirmişdir. Piyadaların Döyüş Maşını üzrə ixtisaslı komandir – nişançı olub. Əsgəri xidmətdən sonra ali təhsil almaq üçün sənədlərini Gəncə Texnologiya İnstitutuna verib qəbul olmuşdur. İnstitutu qırmızı diplomla bitirdikdən sonra gənc mütəxəsis kimi Bakıya gəlmiş, burada Ipək-Mahud kombinatında növbə rəisi kimi əmək fəaliyyətinə başlamışdır.

24 avqust 1991-ci ildə ailə həyatı qurmuşdur. Həyat yoldaşı bir kollektivdə çalışdığı Könül xanım Zəngilan rayonunun Havalı kəndindəndir. Bu izdivacdan iki övlad dünyaya gəlib; Şahnisə və

Şahmurad.

Bu o illər idi ki, erməni daşnakları Respublikamıza qarşı neçə il vardı ki, əsassız olaraq torpaq iddası qaldırmışdı. Erməni təcavüzü nəticəsində Qarabağda müharibə alovu şiddətlənmiş, sərhədyanı rayonlarımız düşmən tərəfindən güllə-boran edilir, dinc əhali öldürülür, kəndlər yandırılırdı. Bütün bunlar hamı kimi Elmanı da hiddətləndirirdi.

1991-ci il 20 noyabr tarixində Qarakənd səmasında erməni daşnaklarının vurduğu vertolyot nəticəsində xalqımızın tanınmış oğulları həlak olmuşdur. General Məhəmməd Əsədov, Baş Prokror İsmət Qayıbov, Akademik Tofiq İsmayılov, Vəli Məmmədov, Alı Mustafayev, Osman Mirzəyev və neçə-neçə say-seçmələr. Bu vəhşiliklərdən hiddətlənən Elman qəti qərara gəldi ki, könüllü olaraq döyüşə gedəcək.

Qeydiyyatda olduğu Bakı şəhər Nizami rayon hərbi komissarlığına gəlib döyüşə yollanmağa ərizə yazır. Ona deyirlər gözlə. Bu gözlə 10 may 1992-ci ilə kimi çəkir. Ailəsinə uzun müddətli işi ilə bağlı olaraq başqa şəhərə məzuniyyətə getməsini deyir. Çünki Elman hamilə həyat yoldaşının narahat olacağından ehtiyatlanıb, bunu

ondan gizlətmişdi. Könül xanım Elmanın döyüşdə olmasından bir neçə ay sonra xəbər tutmuşdu.

10 may 1992-ci ildə könüllü olaraq Qarabağda döyüşə atılan Elman Nuriyev bir də 1998-ci ildə Azərbaycan Müdafiə Nazirliyinin əmri ilə ordudan baş leytinant kimi tərxis olunmuşdur.

İki övladın atası, bir nəvənin babasıdır.

Ailənin ilki Şahnisə 01 avqust 1992-ci ildə doğulub. Azərbaycan Dövlət Pedoqoji Universitetinin kimya-biologiya fakultəsini bitirib. Ailəlidir. Bir övladı var. Evdar xanımdır. Həyat yoldaşı Tural bəydir.

Ailənin ikici övladı Şahmurad 25 iyun 1994-cü ildə doğulub. Hal-hazırda Türkiyədə İstanbul Unveristetinin 4-cü kursunda təhsil alır.

Elmanın nəvə payı 3 yaşlı Süleymandır.

Ömrünün əlli ilinin kürəyini yerə vurmaqdadır. Keçmiş döyüşçü, gözəl ailə başçısı, şirin-şəkər Süleymanın babasıdır. Ötən illərə baxanda heyfsləndiyi bir şey varsa, o da torpaqlarımızın işğal olunmasıdır. İnşallah o gündə yetişər əbədi-əzəli yurd yerlərimiz igid Azərbaycan əsgərinin hünəri ilə geri qayıdar.

Şərəfli bir ömür yaşadı. Çoxlarına örnək olası ömür. Vətənə gərəkli ömür...

# ATA

Yazı əhli yaxşı bilir ki, seçdiyin qəhrəmanın obrazını yaratmaq üçün qarşında mənbə, faktlar, hadisələr toplusu olmalıdır. Yoxsa təxəyyüllə, fantaziya ilə ucaldılan obraz gerçək həyatı əks etdirməz. Bu yöndə çox şanslıyam desəm yanılmararam. Neçə-neçə bədii-publisistik kitabları ərsiyəyə gətirəndə həmişə stolumun üstündə "xəzinə" toplanılırdı ki, onlardan da bolluca istifadə etmişəm. Bu dəfə də belə oldu. Elman Nuriyevin ömür yolunu varaqladıqca qarşıma çoxsaylı maraqlı, məzmunlu hekayətlər toplusu çıxdı. Hər biri də bitkin nağıla, dastana çevrilib xalqlaşan hadisədir. Çünki bu hekayətlərin məzmununda, ruhunda torpaq, el məhəbbəti, vətən ucalığı nəql olunurdu.

Bəli, Adəm övladının İnsan kimi yetişməsində onun doğulduğu ailə, boya-başa çatdığı el-oba, yaşadığı cəmiyyət öz təsirini göstərir. E. Nuriyevin yaşam tərzində də bütövlükdə kökə bağlılıq durur. Türkqanlı, Türkcanlı bu Vətən övladının İlahi eşqində bu amal, bu məqsəd təcalla edir.

Mənsub olduğu nəsil təkcə Qazax rayonunun

İkinci Şıxlı kəndində deyil, həm də ətraf el-obalarda hörmətlə-izzətlə uca tutulur. “Sayılıb-seçilən” nəsildir deyirlər.

Atası Nuruyev Yolçu İsgəndər oğlu 1936-cı il dekabr ayında bu kənddə İsgəndər kişinin külfətində doğulub. Uşaqlıq illəri qanlı-qadalı 1941-1945-ci illərin müharibə dövrünə düşən Yolçu çox erkən yaşlarından zəhmətə qatlaşıb. İllər ötəndən sonra kəndin növcavanına çevrilmiş və gənclik təravəti onu məhəbbət oduna salmış, elin Roza adlı gözəlinə könül bağlamış, ailə qurmuşdular. Bu izdivacdan beş övlad dünyaya gəlmişdir. Etibar, Hicran, Elman, Nəriman və Telman.

Yolçu dayı sadə, zəhmətkeş bir kənd adamı idi. Halal qazancı ilə ailəsini dolandırırdı. Gün-güzaranını heyvandarlıqla, əkin-biçinlə qurmuşdu.

Yolçu dayı həm də bir el ağsaqqalı kimi insanların yaddaşına həkk olunub. Həmişə balaları başına toplaşanda deyərdi: “harda olursunuzsa olun el-oba təəssübü, vətən qeyrətini uca tutun.” Məhz buna görədir ki, Qarabağ savaşı başlayanda, erməni daşnakları Qarabağla bərabər sərhədyanı rayonlarımızı da gülləboran edəndə

oğlanlarına demişdi: “Ev-eşikdə rahatca oturmaq zamanı keçdi. Bu torpağı qorumaq sizində borcunuzdur.”

Elə də oldu. Vətən haraylarına ilk qoşulanlardan oldu Yolçu kişinin övladları. Elmanla bərabər əkiz qardaşları Nəriman, Telman da şərəfli döyüş yolu keçdilər.

Yolçu dayı doqquz nəvə, dörd nəticə sahibi idi.

Yolçu dayı 25 may 2005-ci ildə haqq dünyasına qovuşanda bilirdi ki, özündən sonra xalqına hünərli, ləyaqətli övladlar bəxş edib gedir. Ruhu şad olsun!

# ANA

“Ana haqqı, Tanrı hqqıdır” demiş ulularımız. Dünyanın fatehləri ana qarşısında səcdəyə dur-muşlar. Şairlər ən gözəl şeirlərini anaya həsr etmişlər. Biz də Elman Nuriyevin ömür yolunu varaqlayanda ilk növbədə anası Roza xanım yadımıza düşdü.

Elmanın doğmaları, yaxınları, tanışları dönə-dönə qeyd etmişdilər ki, o, doğmalarına – ata, anasına qarşı çox həssas olub. Valdeynlərini canı-ciyəri, bədəninin bir parçası sanıb həmişə.

Elmanın dostu, oğlu Şahmuradın kirvəsi Adil Qəhrəmanovla olan söhbətimizdə o dedi ki, Elman ata-anasılə sanki nəfəs alırdı. Roza xanımın yaşı ilə əlaqədar olaraq ayaqlarında ağrılar əmələ gəlmişdi. Şahidi olmuşam ki, Elman anasının ayaqlarını yuyub qurulayar, kremləyib, masaj edərdi. Anasının qayğısına qalmaqdan zövq alardı...

Anası Nuruyeva Roza Tapdıq qızı 1939-cu ilin aprel ayında anadan olub. Həyat yoldaşı ilə birgə hər bir əzab-əziyyətə qatlaşıb 5 övlad böyüdüb, təhsil verdirmiş, evləndirib oğul-uşaq sahibi

etmişlər. Roza xanım 2014-cü il 03 dekabr tarixində dünyasını dəyişib.

Qazax rayonunun İkinci Şıxlı kənd qəbirstandlığında Roza xala, Yolçu dayı qoşa məzara çevriliblər. Onların məzarları övladları tərəfindən vaxtaşırı ziyarət olunur, təzə-tər qərənfil güllər qoyulur. Ruhları şad olsun!

# BACI SÖZÜ ŞİRİN OLAR

Analar dünyada olmayanda qardaşlar bacıların ana əvəzi bilib. Oğullar analarının ətrini bacılarından alıblar. Elman da bacısı Hicranı beləcə sanır. Hicran xanımla söhbətimiz çox səmimi oldu. Dörd qardaşın bir bacısı olan Hicran xanım eşidəndə ki, Elmanla bağlı söhbətimiz olacaq deyir "uça-uça gəldim". Deyirəm 50 yaşlı qardaşın indi sənin gözlərində neçə görünür? Gülümsədi: "Heç inanmağım gəlmir qardaşım gəlib çatdı 50 yaşına. Elə bil dünənki uşaqlarıq. Bacı-qardaş əl-ələ tutub kəndimizin boş sahələrində qoyun-quzu otarardıq. Həmişə Elmanla bir gedərdim.

Dönüb ötən günlərə baxanda xoş xatirələr adamı qoynuna alır. Həmin xoş xatirələr kino lenti kimi gözlərimin qarşısında bu gündə canlanır".

Hicran xanım deyir ki, Elmanın hörməti kəndimiz boydadır. Kəndimizdə onu qəhrəman kimi tanıyırlar. Müharibə vaxtı kəndə bir mərmi düşəndə kənd camaatı deyərdi "Ay Elman hardasan?" Bilirdilər ki, Elman gəlib azğın düşmənin on qat cavabını verəcək.

– Hərdən Elman bizə gələndə kənd həyatı-

mızdan, atalı-analı günlərimizdən danışırıq. Bu kövrək xatirələrə göz yaşları tökdüyüm anlarda olub. Amma qardaşlarımın bir zəngi bəs edər ki, dünya mənim olsun. Elman ağsaqqal qardaşımdır. Elə bil allah-təala onu yaradanda əzabkeş, qayğıkeş olacağını deyib. Hamının harayına, dərdinə-sərinə yarıyan kimi gəlib bu dünyaya. Mən qardaşıma deyirəm, canım qardaşım, ad günün-doğum günün münasibəti ilə təbrik edirəm! Ən gözəl nemət olan can sağlığı arzulayıram. Ailənlə birlikdə həmişə xoşbəxt yaşayasan. Səni çox istəyirəm. Mənim bu təbrikimə həyat yoldaşım Cümşüd, övladlarım Səbinə, Sakitdə qoşulur. Bundan sonra da həyatda yeni-yeni uğurlara imza atasan. Səsin daim ucalıqlardan gəlsin. Həmişəcavan, həmişəyaşıl ağsaqqal qardaşım.

# AİLƏ

Çox dəbdə olan, ancaq tərifi məzmunundan çox anlaşıqsız olan bir ifadə var: ailə kiçik dövlətdir. Bunu dövlətin qurumlarına yaxşı bələd olmayan adamlar daha asan qəbul edirlər. Bəli, dövlət kimi möhkəm olmalıdır ailə! Vəssalam! Yuxarıda dediyimiz kimi, dövlət, hakimiyyət uğrunda gedən mübarizədə heç də hamı qalib olmur. Bir qisim hökmranlığa keçir, taxt-tac, iqtidar sahibi olur. Bəs ailədə? Ailədə qalib kim sayılmalıdır? Bu ilk gündən aydın olmalıdır; yoxsa bu da mübarizə gedişində müəyyən edilir?

Gəlin, əvvəlcə mehribanlıq – ünsiyyətlə bağlı insanın – Aristotelin fikrini öyrənək. O deyir:-Mehribanlıq üç cür olur: təbii, yoldaşlıq, qonaqpərvərlik. Təbii – bu, valdeynlərin uşaqlarına və ya qohumlarına bir-birinə olan mehribanlığıdır; bu, heyvanlara da aiddir. Yoldaşlıq – bu, yaxınlıqla bağlıdır, qohumluğa dəxli yoxdur. Qonaqpərvərlik – bu, görüş zamanı və ya məktub göndərməklə tətbiq edilir. Bir çoxları məhəbbət mehribanlığını da buna aid edirlər.

Biz birinci şərtlə - yəni təbii olaraq yaranmış

mehribanlıqla bağlı məsələni, onun da əsas qolunu – ailəni diqqətə çəkməliyik.

Ailə haqqında fikirlər müxtəlifdir. Kimsə deyir ki, ailə - ilğım, miraj kimidir. Uzaqdan daha gözəl görünür. Bu, Həqiqətən belədirmi, yoxsa, başqa birisinin söylədiyi fikir bəlkə daha aktualdır. Söhbət var-dövlət üstündə dayananda məhəbbət ailəni tərk edir. Ailə xoşbəxtliyin ana yurdudur desəm yanılmaram.

– Bizim ailədə, əksər azərbaycanlı ailəsi kimidir. Hər ikimiz çalışmışıq ki, dolanışığımızı imkanlarımıza uyğun quraq. Bahalı olmasa da, təmiz, səliqəli geyinək, xeyirdən-şərdən qalmayaq. Bir çox başqa ailələrdən bizi fərqləndirən cəhət də olub. Bu toxluqla yaşamaq məramı ilə bağlıdır. Mən xoşbəxtliyimi bunda görürəm – deyir Könül xanım.

Elman və Könül məhəbbəti uzun bir ömür yaşayıb, yaşamaqdadır. Baxmayaraq onlar respublikamızın müxtəlif bölgələrində doğulublar. Müxtəlif ailələrdə tərbiyə alıblar. Onları birləşdirən saf eşq, təmiz məhəbbət, bir-birinə olan sədaqət və inamdır.

Könül xanım deyir: – İki ay vardı ki, işləyirdim.

Elman da Zərif-Mahud Kömbinatına oxuduğu institutdan praktikaya gəlmişdi. Bu 1990-cı il idi. Bir neçə ay praktika keçdi və yenidən oxuduğu Gəncə Texnologiya institutuna getdi. Bir ildən sonra o bizim kombinata gənc mütəxəssis kimi qayıtdı. Növbə rəisi idi. Gəldiyi gündən işgüzarlığı, çalışdığı kollektiv ilə isti münasibəti qısa vaxtda onu hörmət-izzətli etmişdi. Bu qarabuğdayı, şirin oğlana çox qızlar qəlblərinin dərinliyində eşq atəşi yandırmışdılar.

Elmanla mənim iş yoldaşı kimi səmimi dost münasibətimiz yarananda heç bilməzdim ki, bu qəlbimizin dərinliyində oturuşmuş məhəbbət imiş. Və bir gün bu dostluq sonsuz bir eşqə qapı açdı...

Könül xanım bu məhəbbət dastanının közünü qurdalasa da, nədənsə ardını danışmadı. Dedi bu munisdir, müqəddəsdir. İstəmirəm ki, bizimsaf eşqimiz dilə-ağıza düşsün.

...1991-ci ildə ailə qurublar. 25 ildir ki, birgə ömür sürürlər. Bu illər ərzində çox küləklər əsib, çox qovğalar görsələrdə onların əkib-becərdiyi məhəbbət ağacını soldura bilməyib. Həmişə yaşıl, təzə-tər qalıb.

Bu sevgidən iki övlad dünyaya gəlib. Şahnisə və Şahmurad.Bir şirin-şəkər nəvələri, ömürlərinə yaraşıq qatan – Süleymanları var. Sevə-sevə “Sultan Süleymanım” deyirlər.

– Qanadlar möhkəm olanda daha uzaqlara, ənginliklərə uçmaq iqtidarındadır, – deyir Könül xanım. Onlar qoşa qanaddırlar. Qoşalıq xoşbəxtlik mücəssiməsidir. Övladlar da ağıllı, kamallı, əxlaqlı böyüyüb cəmiyyətimizə, vətənimizə yararlı insan kimi yetişəndə insan müqəddəsləşir. Axı övladlar ailənin şəxsiyyət vəsiqəsidir. Şahnisə ali təhilli, Şahmuradsa hal-hazırda Türkiyədə ali təhsilini davam etdirir.

– Bizim ailədə nə yaxşı cəhətlər varsa, əslimizlə-kökümüzlə bağlıdır, valdeynlərimizdən görüb-götürdüklərimiz, eşidib-anladıqlarımız bizi tanıyanlar arasında hörmət-izzət sahibi edib.

Bu ailədən öyrəniləsi, həyat kredomuza çevriləsi çox şeylər əxz etdim özüm üçün.

**QIZI ŞAHNİSƏ:** – Əgər bu dünyanı maraqlı bir kitaba, onun sakinlərini isə həmin əsərin qəhrəmanlarına bənzətmək mümkündürsə, onda mənim atamı bu sənət əsərinin baş müsbət qəhrəmanı adlandırmaq olar. Mənim atam ataların

ən gözəli, ən yaxşısıdır. Ailəcanlı atam 2 övlad böyüdüb, ərsəyə yetirib. Onları vətənpərvərlik, humanizm ruhunda tərbiyə edib. Mən atamı çox sevirəm. Çünki çətin anlarımızda, o hər birimizə mənəvi kömək, dayaq olub. Biz onun məhəbbəti ilə ucalmış, həqiqət yolunu tutmuşuq.

Həyatda insanın ən böyük qazanclarından biri də dost qazanmaqdır. Atamın şəxsində mən özümə həm də ən yaxın, ən munis, məsləhət yerim olan dost qazanmışam. Sadə, təvazökar, vüqarlı, əyilməz. İndi həm atam, həm də dostum olan Elmanın 50 yaşı tamam olur. Işi, həyatı və əməllərilə qürur duyduğum atamı yubiley yaşı münasibəti ilə təbrik edir, sağlam can, işlərində müvəffəqiyyət arzulayır, ona üz tutub deyirəm:

-Yubiley yaşın mübarək, ata!
Sevdin yurdun torpaq-daşın,
Onunla ucaldı başın.
Gəlib çatdı 50 yaşın,
Ay atam, yaşın mübarək!

Safdı eşqin, məhəbbətin,
El yanında var hörmətin.

Tükənməzdi bu şöhrətin,
Ay atam, yaşın mübarək!

Bir örnəkdir ömür yolu,
Dost-tanışdır sağı, solu.
Sevinc dolu, kədər dolu,
Ay atam, yaşın mübarək!

Söz-söhbətdə bal-şərbətsən,
Hər cümləndə nəsihətsən.
Başdan-başa sən hikmətsən,
Ay atam, yaşın mübarək!

Səmimidi səndə ürək,
Taleh sənə olsun kömək.
Üz-gözündən öpüm gərək,
Ay atam, yaşın mübarək!

**OĞLU ŞAHMURAD:**

– Ata! Necə də müqəddəs səslənir bu kəlmə. F. E. Dzerjinski demişdir: “Uşaq onu sevəni sevir, uşağı ancaq məhəbbətlə tərbiyə etmək olar”. Biz də məhəbbətlə tərbiyə almışıq, o adamın məhəbbətilə ki, son dərəcə mehriban, qayğıkeş və

həssas insandır. Bu mənim atam Elman Nuriyevdir. Hələ qədim dövrlərdən ana qayğısından və məhəbbətindən danışılır. Biz isə mən və bacım xoşbəxt uşaqlarıq ki, ana məhəbbəti ilə birlikdə ata sevgisini və istəyini də görmüşük. Ata haqqında danışmaq nə qədər asan olsa da, bir o qədər çətindir. Asandır, ona görə ki, mən onun qucağında, gözləri önündə böyüyüb boya-başa çatmışam. Hər bir üz cizgisinə bələdəm atamın.

Vətəncanlı, yurdsevərdir. Qarabağ uğrunda gedən savaşa könüllü qoşulan atam şərəfli döyüş yolu keçib. Onun döyüş xatirələrini həyacansız dinləmək olmur. Ölümün gözünə qeyrətlə baxıb.

Biz onun uşaqları–övladları onun yaxşı işlərindən, xoşməramlı əməllərindən bəhrələnirik. Məlumdur ki, övladlar valdeynləri ilə hər zaman fəxr edir. Mən atamı çox istəyir və onunla fəxr edirəm. Mənə hərdən elə gəlir ki, o dünyada ola bilən bütün universitetləri bitirib. Bu tək mənim fikrim deyil, onu tanıyanların hamısının bu cür düşündüklərini eşitmişəm.

Atam həm də mənim həyatım, bugünüm, sabahım, gələcəyim, qardaşım, dostum-sirdaşımdır. Tək ata deyil, mənim üçün həyat deməkdir.

Yubiley yaşın kutlu olsun, canım ata!

Həm arxamsan, dirəyimsən,
Sən əyilməz biləyimsən.
Ömrüm boyu gərəyimsən,
Dağ vüqarlı, atam mənim.

O açdığın cığır yolum,
Uzalıdır sənə qolum.
Nurlu gözlərinə qonum,
Başı qarlı, atam mənim.

Dizlərimdə taqətimsən,
Andım, eşqim, qüvvətimsən.
Darıxanda həsrətimsən,
Düz ilqarlı, atam mənim.

# NƏVƏM DİL AÇDIQCA DİLİM AÇILIR

Neçə vaxt vardı ki, balaca Süleyman haqqında yazı yazmaq könlümə düşüb. Üç yaşlı Süleyman Elmanın ilk nəvəsidir. Şahnisənin övladıdır. Şirin-şəkər baladır. Könül xanım deyir ki, Elman nəvəsin çox istəyir. Onunla vaxtaşırı telefonla danışmasa, yaxud görməsə darıxır. Deyirəm ki, Könül xanım niyə də sevməsin. Atalarımızın bir gözəl məsəli var: "Dövlətdə dəvə, övladda nəvə".

Süleyman dünyanın gedişatını hələ bilmir. Bütün körpələr kimi o da şən, qayğısız, xoşbəxt illərini yaşayır. İnşallah böyüyüb babasını gözəl əməlləri ilə sevindirər. Mən isə onun dilindən babasını belə təbrik edirəm:

– Dünyada hamının babası var. Amma mənim babam kimi sevimli, əziz, öz nəvəsini dərindən istəyən, nurlu, ürəyi yumuşaq adama az rast gəlinər. Hər zaman məni cürbəcür oyuncaqla sevindirib.

Elman babamı yubiley yaşı münasibəti ilə təbrik edir, ona çoxlu nəvələr və bütün arzularına qovuşmasını diləyirəm.

Nurani görkəmin var,
Özgə bir aləmin var.
Eldən başqa nəyin var.
Ay mənim Elman babam.

Şipşirindi sözlərin,
Dupdurudu gözlərin.
Arxasısan bizlərin,
Ay mənim Elman babam.

Qələm görüb əlimdə,
Pıçıldadı nənəmdə:
“Təbrikim var mənim də”
Ay mənim Elman babam.

Nəvənəm səni gərək,
Birinci təbrik edək.
Əlli yaşın mübarək.
Ay mənim Elman babam.

* * *

**KÜRƏKƏNİ TURAL:** – Elman əminin 50 yaşı. Bu, təkcə quru, cansız bir rəqəm deyildir. Sanki dil açıb danışırdı. Qazaxdan Bakıya sarı uzanan

ömür yolunun eniş, yoxuşundan, sevincindən, kədərindən soraq verirdi. Bu ömür torpağa, elə bağlı ömür, xalq üçün yanan, el üçün yaşayan ömürdür. Həyatın istisini, soyuğunu görmüş ömürdür.

Elman əmini bir ağsaqqal kimi, övladımın babası kimi həmişə əziz sanmışam özümə. Onun vaxtaşırı bizə baş çəkməsi, qayğılarımızla maraqlanması, problemlərimizin həllinə kömək etməsi mənə qol-qanad verir. Həmişə əlini kürəyimdə hiss etmişəm.

Elman əmi sadə, səmimi olduğu qədər də, nikbindir. Özünə, sözünə inam böyükdür. O sabaha böyük ümidlərlə baxır, sözü ilə əməli bir-birini tamamlayır. Hay-küyçülükdən, öyüd-nəsihətçilikdən uzaqdır.

Elman əmi mən sizi bir qaynata kimi yox, bir doğma əmim, dayım kimi gördüm ilk gündən. Məni öz övladlarından seçmədiniz. Allah sizə can sağlığı, uzun ömür versin. Sizin doğum gününüzü-yubiley yaşınızı təbrik edirəm. İnşallah 100 yaşınızı qeyd edək. Bu həyatda nə arzu, diləyiniz varsa gerçək olsun inşallah.

## DOĞMALARI

**QARDAŞI ETİBAR:** – Elman ailəmizdə üçüncü övladdır. Yadıma gəlir o uşaq yaşlarından zəhmətkeş, Işgüzar uşaq idi. Hər bir işin dalınca onu buyurardı valdeynlərimiz. Qoyun-quzu, mal-heyvan nobatına da gedərdi. Özü də bütün işləri səylə yerinə yetirərdi. Atamın, anamın köməkçisi idi.

İllər ötdü Elman böyüdü. Ali təhsil alıb əmək fəaliyyətinə başladı. Çox keçmədi ki, ailə həyatı da qurdu. Bu o illər idi ki, gənc Müstəqil Dövlətimizin başının üstünü qara buludlar almışdı, erməni separatçıları Qarabağda qanlar tökür, torpaqlarımız işğal olunurdu. Belə bir vaxtda Elman silaha sarılıb torpaqlarımızın müdafiəsinə yollandı. Onun ardınca da əkiz qardaşlarım Telmanla Nərimanda müharibəyə getdilər.

Cəbhə bölgəsindən ağır xəbərlərə o illər vərdişkar olmuşduq. Elmanın şücaətindən tez-tez xəbər tuturduq. Yaxşı xidmətlərinə görə dəfələrlə komandanlıq tərəfindən təşəkkür və tərifnamələrə layiq görülmüşdü.

Atəşkəs dövründə də o zabit kimi Milli Orduda qalıb 1998-ci ilə kimi vətənin xidmətində durdu.

Yüzlərlə əsgərin yetişməsində öz bilgilərini öyrətdi.

Elmanın ömür yolu bu gün çoxlarına örnəkdir. Oğlanlarım İsgəndər, Samir həmişə əmiləri ilə fəxr edir, ona oxşamağa çalışırlar.

İndi qardaşımın 50 yaşı tamam olur. Sanki onun bütün ömrü gözlərim qarşısından kino lenti kimi bir-bir ötüb keçir. Bir vaxtlar qara, ağ kadrlardan ibarət olan o lentləri indi rəngli kadrlar əvəz edir. Qürur hissi keçirirəm. Var ol qardaşım. Yubiley yaşın mübarək olsun!

* * *

**QARDAŞI NƏRİMAN:** – Bütün canlıların ən alisi olan insanın dünyaya gəlişi ailəsi və qohumları tərəfindən aləmdə yeni nəfər kimi dəyərləndirilir. Tanrı hər kəsin qismətini, onun gələcəyini alın yazısı deyilən məfhumla müəyyənləşdirir. Lakin bu heç də həyatı öz axarına buraxmaq, talehin hökmünə boyun əymək demək deyil. Həyatda hər şeyi talehin ümidinə buraxmağın, mütiliyin insan ömrünü hədər yaşamağa sürükləməyin törədəcəyi fəsadlar qaçılmazdır.

Dünyanın gərdişinə mütilik göstərmək müba-

rizlik ruhunu öləziləşdirən insanlar ömrü hədər yaşayır və özündən sonra heç bir iz qoymurlar. Nəticədə onlar istər ailədə, istər yaşadığı kənddə, rayonda tez unudulurlar. Ancaq elə insanlar da olur ki, böyük qəhrəmanlıqlar göstərməsələr də, yaxşı əməlləri ilə el içində qazandıqları adsanları sayəsində uzun müddət ehtiramla yad olunurlar. Atam Yolçunu belə insanlardan sanıram. Sadə, elinə-obasına bağlı olan insan. Öz halal çörəyi ilə bizi-beş övladını böyüdüb. Biz də çalışmışıq ki, yaxşı əməllərimizlə atamızın ruhunu şad edək.

Ailəmizin üçüncü övladı Elmanın 50 yaşı tamam olur. Bu elə bir yaşdır ki, bir igidin ömrü deməkdir. Qardaşım çox əzablı, keçməkeşli ömür yaşayıb. Tarixin xalqımıza gətirdiyi Qarabağ problemi, mənfur qonşularımız ermənilərin əsassız torpaq iddası, bu yolda minlərlə vətən övladının şəhid olması ilə nəticələnib. Elman da Qarabağ müharibəsinin iştirakçısı olub. Şərəfli döyüş yolu keçib – igidliklər göstərib, mərdlik, qəhrəmanlıq nümunəsinə çevrilib...

– Qardaşım sən gözəl bir yay səhərində dünyaya göz açdın. Sənin gəlişinlə həyat gözəlləşdi,

nurlaşdı. Sən bu gün insana xas olan müsbət keyfiyyətləri özündə daşıyırsan. Həyatın hər sınağına sinə gəribsən. Öz halal əməyin, işgüzar fəaliyyətinlə yüksəkliklərə ucalıbsan. Dahi şairimiz Nizami Gəncəvi demişkən:

Elə ki, böyüdün, belədir qayda,
Atanın adından sənə nə fayda?
Sən aslanlar kimi keç cəbhələrdən,
Yalnız hünərinin balası ol sən!

Sən sözün əsl mənasında yaxşı qardaşsan, arxasan, dayaqsan. Mən də öz adımdan, ailəm adından səni təbrik edirəm. Qoy kölgən heç zaman üstümüzdən əskik olmasın.

Yaşa! Var ol!

* * *

**QARDAŞI TELMAN:** – Gözəl insani keyfiyyətləri, səmimi rəftarı və alicənablığı ilə hamının rəğbətini qazanmış insanlardan söz düşəndə qardaşım Elman Nuriyev yada düşür. Onun sinəsində bütün həyatı boyu doğma xalqına, vətəninə, doğmalarına, dostlarına, eyni zamanda,

həqiqətə. Düzlüyə, məhəbbətlə dolu olan və rahatlıq bilməyən bir ürək görünür. Keçdiyi həyat yolunun ağırlığı, uşaqlıqdan üzü bəri çəkdiyi əzab-əziyyətlər onu daha da mətinləşdirmiş, həyatda öz yerini tapmaqda, çalışdığı hər bir sahədə yenilməz uğurlar əldə etməkdə ona yardımçı olmuşdur.

İnsan ömrü coşğun dağ çaylarına bənzəyir. O öz başlanğıcını qarlı zirvələrdən götürür, dərələrdən, düzlərdən keçərək qayğı və ciddi sınaq meydanı olan bir dənizə tələsir, həyat dənizinə! Bu dənizdə onu nələr gözləyir? Hər şeydən əvvəl, böyük çətinliklər, gərgin zəhmət, təmkin və səadət. Qartal zirvələrə çatmaq üçün – səmalarda qanad çaldığı kimi, insan da el-oba təəssübü çəkə-çəkə xalqına faydalı olmaqla şan-şöhrətə çatır, ad-san yiyəsi, hamının sevimlisi olur.

Qardaşım Qarabağ adlı bağı açılmayan, düyünü çözülməyən bir dərd yaşayır. Peşəkar hərbiçi ürəyi bu təhqirə dözmür, yaşının bu dönəmində də belə onu mübarizəyə – savaşa, müharibəyə çağırır... Lakin qəlbinin dərinliklərində inanır ki, düşmən nə qədər güclü, nə qədər alçaq və yaramaz olsa da, yenə Azərbaycan xalqı qalib gə-

ləcəkdir. Kədərə qapılmaq, bədbin olmaq həyatda ona yabançıdır. Nikbinlik və həyatsevərlik onun qəlbinin sönməz duyğularıdır. Qoy bu gözəl, müqəddəs duyğular daim onunla yaşasın, ömrünü uzun eləsin. Bundan sonra da hələ uzun illər boyu tükənməz arzular onu tərk etməsin.

Qardaşım Elmanın insani keyfiyyətlərini qələmə alsaq qalın-qalın kitablar sığmaz. İçimdə bitib-tükənməyən diləklər var qardaşıma. Sənin yubiley yaşın bizim bayramımız, bizim toy-düyünümüz, sevincimizdir. Əziz qardaşım ad günün mübarək. Sənə ömür boyu xoşbəxtlik arzu edirəm. Kədər sənə mənim qədər uzaq, sevinc ətrafındakılar qədər yaxın olsun. Hər zaman səni sevənlərin əhatəsində olasan. Gələn günlərin, ötən günlərindən daha maraqlı, daha yaddaqalan olsun. İnşallah!

* * *

**QARDAŞI OĞLU İSGƏNDƏR - SAMİR:** – Elman əmim haqqında düşünərkən istər-istəməz tələbkarlığı, sözübütövlüyü, comərdliyi, haqqı müdafiə etməsi, nəcibliyi, dostluğa sədaqəti, xalqa məhəbbəti və s. milli-mənəvi xüsusiyyətləri

ilə onu tanıyanların qəlbində özünə əbədi heykəl düzəldən nurani simalı bir insan canlanır. Elə bir insan ki, nəsil karvanımızda onun öz yeri var. Ən çətin məqamlarda əmim məsləhət yerimiz olub. Ona güvənmişik. O da öz növbəsində hamımızın etimadın qazanıb.

Həyatda onunla həmişə fəxr etmişik; saf, duru, təmiz, mənəvi və fiziki cəhətdən sağlam, vətən-canlı, yurdsevər. Bir sözlə əmimin həyatı bizim üçün böyük məktəb olub.

Yaşı 50-ni haqlasa da, qəlbən cavandır əmim. Belə bir əlamətdar gündə biz də əmimi 50 yaşın astanasında təbrik edir, ona uzun ömür, cansağ-lığı və yüz yaşın zirvəsinə çatmağı arzulayırıq.

# VƏFALI DOST

Yaxşı saxla sadiq dostu,
Bir gün gələr gərək olar.
Üzə gülən yüz olsa da,
Vəfalı dost tək-tək olar.

Kitabın yazıldığı gündən Elmanın dostu, həmyerlisi, kirvəsi Adilin adı çox çəkilirdi. Adil müəllim haqda o qədər xoş sözlər danışmışdılar ki, tanımaza-bilməzə bu şəxs haqqında içimdə xoş təəssürat yaranmışdı. Sanırdım ki, Elmanla görüşmək imkanım məhdud olsa da elə Adillə görüşməyim hər şeyi həll elədi. Düşüncəmdə yanılmadım.

Onunla görüşdüm. Olduqca mədəni, nurlu çöhrəli, mehriban, 50 yaşında olan bu insan elə ilk andaca mənə milli xarakterli insan anlamını anlatdı. O dedi:

– Elmana qüdrətdən verilən ən böyük payın biri elə ululardan, ata-anasından ona miras qalan böyük insani dəyərlərdir. O sərv ağacı yox, tufanlara sinə gərən möhtəşəm bir bar ağacıdır. Hər ağac öz kökü üstə bitdiyi kimi, insan da öz

kökündən qidalanır. Bəzən özündən asılı olmayaraq etdiyi yaxşılıq, yaxud yamanlıq sahibinə valdeynlərin qanı ilə təlqin olunur. Ən xoş məqam odur ki, Elmanın qanında valdeynləri – Yolçu dayının, Roza xalanın halallıq, saflıq, sədaqət, cəsarət qanı çağlayır-deyib söhbətə körpü saldı.

Onu da qeyd edək ki, Adil Qəhrəmanov Adilpaşa oğlu 16 aprel 1965-ci ildə Qazax rayonunun Canalı kəndində doğulub. 1972-ci ildə birinci sinifə getmiş, 1982-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirib. 1983-1985-ci illərdə Sovet Ordusu sıralarında Rusiyanın Xabarovski vilayətində Piyada qoşunlarında PDM nişançısı, sonradan PDM komandiri olub. Hərbi xidmətdən sonra Bakıda Lampa zavodunda usta işləyib. İşləyə-işləyə Texniki Unverisiteti 1990-cı ildə bitirib.

Bu o vaxtlar idi ki, Azərbaycanda ictimai-siyasi vəziyyət gərgin idi. Qarabağdan, Ermənistanla həmsərhəd olan rayonlarımızdan hər gün qanlı-qadalı xəbərlər gəlirdi.

Adil deyir ki, Bakıda yaşasam da yarı canım rayonumuzda idi. Üstəgəl iş yoldaşlarım tez-tez məndən soruşurdular ki, “Qazaxda vəziyyət necədir”? Özlüyümdə fikirləşirdim ki, insanlar de-

mək istəyir “nə oturmusan burda, get qoru, döyüş”. Bu suallar gecə-gündüz məni düşündürürdü. Nəhayət bu sualın cavabını əməlimlə yerinə yetirdim.

Avqust ayı idi. Qazaxa, könüllülər batolyonuna gəldim. Bildirdim ki, mən PDM nişançısıyam. Məni batolyona qəbul edib, qeydiyyatda olduğum Nizami rayon hərbi komisarlığna arayış verdilər ki, mən iş yerimdən azad olum.

Batolyonda Elmanla tanış oldum. Texnika qıtlığı vardı. Gürcüstan Respublikasın da yerləşirdi PDM zavodu. Oradan PDM-lər alınıb burada komplektləşdirirdik. Beləcə bir aydan çox texnikaların təmiri ilə məşğul olduq.

Döyüşə getməyə yaman tələsirdik. Nəhayət ki, döyüş başladı. Elmanın dəstəsi Gədəbəyə getdi. Onun ardınca mən də dəstəmlə Başkəndə getdik. Həmin döyüş vaxtı Elmanı daha yaxından tanıdım.

Texnika qıtlığı olduğundan biz cəbhənin müxtəlif istiqamətlərində köməyə gedirdik. Gədəbəydən qayıdan kimi Elmanı Ağdərəyə, məni isə Ağdama, Fərrux dağı uğrunda gedən döyüşlərə yolladılar. Orada əməliyyat başa çatan kimi

Elmanla birlikdə Bala Cəfərliyə gəldik. Həmin vaxtlar Elmana "təcili yardım" deyirdilər. Çünki harada çətinlik yaranırdısa Elman dəstəsi ilə ora yetişirdi.

Beləcə cəbhə yoldaşlığı dostluğa çevrilmişdi. O mənim oğlum Pərvinin kirvəsi oldu. Mən də onun oğlu Şahmuradın kirvəsi oldum. Kirvəlik bizdə müqəddəs qohumluq hesab olunur. "Kirvə kirvənin damının üstünə çıxmır ki, torpaq tökülər" zərb-məsəli əbəs yerə yaranmayıb. Kirvə bizdə əziz adam, ailənin bir üzvü sayılır.

Batolyonda ən şücaətli uşaqlar Elmanın bölüyündə idi. Qorxmaz, igid, qəhrəman, peşəkar döyüşçülər vardı. Qardaşları Telman, Nəriman da onunla bərabər döyüşürdülər. Bir ailədən üç nəfərin döyüşməsi onların ailəsinin vətən, yurd sevgisindən irəli gəlirdi.

Elman haqda günlərlə danışsam, qurtarmaz. Dostum, 50 yaşın mübarək. Ailəm də bu təbrikə qoşulur.

# AD GÜNÜN MÜBARƏK

Qohum olub, qohum yolunu gətirmək hər adamın işi deyil. Bu mənada özümü şanslı insan sanıram desəm yanılmaram.

Elman güllə qohumluğumuzun tarixçəsi 25 il öncəyə təsadüf edir. Yəni qızım Könül ailə quran gündən. Bu illər ərzində Elmanı abır-həyalı, böyük-kiçik yeri bilən, ailəcanlı, qohumcanlı kimi tanıyıram.

Heç yadımdan çıxmaz. 1993-cü ilin qanlı-qadalı günləri idi. Doğma yurd-yuvamız Zəngilan rayonu erməni işğalına məruz qalmışdı. On, yüz minlərlə insanlar kimi bizim ailə də məcburi köçkünə çevrildi. Eli-obası viran olan insan kimi ümid yerimiz Bakıya pənah gətirdik. Onda Elman cəbhə bölgəsində erməni gavurlarına qarşı döyüşürdü. Ailəsi də Qazax rayonunda yaşayırdı.

Bakıda iş yerindən ona iki otaqlı ev verilmişdi. Biz Elmanın bu evində - Keşlə qəsəbəsində məskunlaşdıq və uzun illər burada yaşadıq. Demək istəyirəm ki, Elman çətin günlərimizin həyanı, dayağı oldu.

Onun valdeynləri Yolçu kişi, Roza bacı da

gözəl insanlar idi. Allah hər ikisinə də rəhmət eləsin. Qəbirləri nurla dolsun. Qardaşları Etibar, Telman, Nəriman, bacısı Hicrandan qohum kimi həmişə hörmət-izzət görmüşük.

Elə bil dünən olmuşdu...Onda Elmanın 25 yaşı vardı. İndi isə 50 yaşı tamam olur. Övladlarım – Tahir, Elçin, Əkrəm, Sadiq, Tahirə, Pəri də təbrik edir, ona ailəsinin üstündə olmasını və can sağlığı diləyirik.

***Suğra Bağırova***

## QƏLBİMİZDƏSƏN

Əlli il yaşamaq çox olmasa da, az da deyil. Dəxli yoxdur bu illər ərzində ad gününü neçə dəfə qeyd edibsən. Əsas odur ki, dönüb əlli il geriyə baxanda qürurlanırsan, "mən də nə isə edə bilmişəm" deyirsən. Bizim qohumların yaddaş kitabına həkk olunmuş çox insanlar var. Onların sırasının daim genişlənməsini bir qürur hissi ilə qeyd etməliyik. Bu qohumluğun sırasında laiqli yer tuanlardan biri də Elmandır.

Eşidəndə ki, Elmanın əlli yaşı tamam olur sevindim. Əlli yaşın mübarək qardaşım.

***Qaynı Tahir Bağırov***

# XOŞBƏXT ADAM

Xoşbəxt o insandır ki, onun xasiyyəti gözəldir. Və bir də onu deyirlər ki, əsl insan odur söz ilə əməli düz gəlsin. Elman müəllim belə insanlardandır. Onun haqqında ürək sözləri deməmək, qəlbindən gələni ağ kağıza köçürməmək günahdır. Elman müəllim də elə gözəl xasiyyətlər var adam yaxşı mənada qibtə edir və istəyir ki, onun kimi olsun. Vətənə bağlılıq, ailəyə bağlılıq, dəyər, əxlaq və bütün nəcib xüsusiyyətlər onda cəm olub.

Ürək sözlərim ölçüyə gəlməz. Bir qohum kimi Elmanın 50 illik yubiley münasibətilə təbrik edir, ona cansağlığı, bütün qohumların, dostların əhatəsində firavan günlər arzulayıram.

***Qaynı Əkrəm Bağırov***

# ALLAH SƏNƏ DƏYMƏSİN

İnsan həyatda özü-özünü tapmalıdır. Axı həyat həmişə hamar olmur. Həyatın mürəkkəb, enişli-yoxuşlu, daşlı-kəsəkli vaxtıda olur. Gərək atdığın hər addamın məsuliyyətin hiss edəsən. Bu mənada Elmanın ömür yoluna baxanda qürurlanmaya bilmirsən. Çünki Elman bəyin mayası halallıqdan yoğrulub, həyatda nəyə nail olubsa hamısını zəhməti bahasına qazanıb. Onun Qarabağ döyüşlərində göstərdiyi şücaət haqqında söhbətlərə qulaq asanda adam heyrətlənməyə bilmir. Haqlı olaraq ulularımız demiş: “Vətən igid oğulların çiyinlərində yaşayır”.

Əzizim Elmanın 50 yaşı tamam olur. Allah sənə dəyməsin demək könlümdən keçir. Çox yaşa...

***Qaynın Elçin Bağırov***

# OT KÖKÜ ÜSTÜNDƏ BİTƏR

Hərə xoşbəxtliyi bir cürə başa düşür. Mənə qalarsa, bir adam haqqında onu tanıyanlardan soruşanda ki, o necə adamdır və onlar fikirləşmədən o yaxşı adamdır, dediyi sözün qiymətini bilən, verdiyi sözə əməl etməyi bacaran, yer-yataq gözləyən, xeyirxah adamlara mən xoşbəxt adam deyirəm. Belə xoşbəxt insanlardan biri də, doğma qardaşım qədər, xətrini istədiyim yeznəmiz Elmandır. Ot kökü üstündə bitər. Elmanın atası, rəhmətlik Yolçu dayı ilə biz qohum olduğumuz vaxtdan gördüm ki, o yuxarıda saydığım keyfiyyətlərə malik bir kişi olub...

Elə bitki var ki, onun üstünə iki bel ağzı torpaq atırlar, o bitki onun altından çıxmağı bacarmır. Bitki də var ki, neçə santimetr qalınlığında, yaxşı preslənmiş asfalt örtüyünü deşib çıxmağı, özünün varlığını subut etməyi bacarır. Elman da həyatda nə qazanıbsa hamısını özünün ağılı, bacarığı, qabiliyyəti sayəsində qazanıb. O həyatın bütün sınaqlarından üzü ağ çıxmış mərd, mübariz insandır.

Ailəcanlı, qohumcanlı Elmanın xətrini biz çox

istəyirik. Bu hörməti-izzəti özü qazanıb. İndi onun 50 yaşı tamam olur. Həyat yoldaşım Fariz, övladlarım Fərid, Taleh də onun yubiley yaşını təbrik edir. Var ol Elman. Ailənin üstündən əskik olmayasan

***Baldızı Tahirə Zalıyeva.***

# BOL-BOL TƏBRİKİM VAR

Oğul, qıza çox əzizdir,
Söhbəti dürlü, ləzizdir.
Əqidəsi tər-təmizdir,
Əlli yaşlı Elmanımın.

Baxışı qartal baxışı,
Duruşu igid duruşu.
Vuruşu ərən vuruşu,
Əlli yaşlı Elmanımın.

Səmimiyyəti və mehribanlığı ilə hamımızın hörmətini qazanan Elmanımızın bir gününü – 50 illik yubileyini təbrik etmək mənim də ülvi və şərəfli borcumdur.

Bol-bol təbriklərimi və arzularımı çatdırır, sənə, ailənə, övladlarına və nəvənə cansağlığı, xoş-bəxtliklər arzulayıram.

Qoy hər an Allah yardımçınız olsun.

***Qaynı Sadiq Bağırov***

# QARDAŞLARIMDAN BİRİDİR ELMAN

Hörmət elə ecazkar qüvvədir ki, o yalnız ətrafa xeyir işığı saçmır, həm də özü üçün xeyir yaradır. Ağsaqqal elə zirvədən görünməlidir ki, onun ədasında, rəftarında, kəlamında normal insan şüurunun bütün tələblərinə cavab verən işıqlı əlamətlər olsun, idrak yolunda ulduz tək parlasın. Təkcə öyüd-nəsihət vermək azdır, yeri gəldikcə cəfaya qatlaşmaq ağsaqqalın vəzifəsi olmalıdır. Bizim Elman cavan olsa da ağsaqqalıq tütulun çoxdandan qazanıb.

Elmanı qardaşlarımdan biri bilmişəm. Həmişə özünü, sözünü bilən insan kimi qəlbimizdədir.

Həmişəcavan qardaşımın 50 yaşını təbrik edir, ona həyatın ən əziz neməti olan can sağlığı arzulayıram.

***Baldızın Pəri Bağırova***

# DOSTUM ELMAN

Əziz dostum Elman. 50 illik yubiley yaşın münasibətilə özüm və ailəm adından səmimi qəlbdən təbrik edirəm. Səninlə mənim ilk tanışlığım, dostluğum 27 il bundan öncəyə təsadüf edir. Biz səninlə lap gənc yaşlarımızda eyni müəsissədə bir yerdə çalışdıq. Həm iş yoldaşı, həm də yerli kimi ünsiyyət qurduq. Bu ünsiyyət yoldaşlığa, dostluğa çevrildi. Bu o illər idi ki, Vətənimiz Azərbaycanın başın üstünü qara buludlar almış - Qarabağ müharibəsinin alovu qızışırdı. Hər ikimiz bütün vətənpərvər insanlar kimi döyüş bölgəsinə yola düşdük. Ayrı-ayrı bölgələrdə döyüş yolu keçsək də sonralar tale bizi yenidən cəbhə bölgələrinin birində rastlaşdırdı. Bu bəlkə də təsadüf deyil, bizim alın yazılarımız idi. Bu qarşılaşmadan sonra bizim dostluğumuz daha da möhkəmləndi və ailələr arası dostluğa çevrildi. Sənin necə mərd, cəsur döyüşçü, peşəkar hərbiçi olduğunun mən şahidiyəm. Sənin döyüş meydanında göstərdiyin qəhrəmanlıqlar hələ də dillər əzbəridir.

Mən səni həm yaxşı zabit, həm də yaxşı dost

kimi tanımışam. Kimlər həyatımıza gəlsə də dostluğumuzun yeri heç vaxt dəyişmərək qalacaq. Mənim üçün illər keçsə də belə qalıb, qalacaq. Bəlkə də belə düşündüyümüz üçündür ki, biz sədaqətli dost obrazı yarada bilmişik. Köhnə dostluğumuz heç vaxt köhnəlmir, həmişə təzətərdir. Ulularımız demişkən dostluğa nə ağa, nə qul lazımdır. Dostluq bərabərliyi sevir.

Bəzən dostluqlar adi bir səbəbdən bitə bilir. Bunu hər iki tərəf də qəbul etməsə də, bəzən qürur hissi bunu bitirə bilir, bəzən də başqa birisinin tək bir sözü. Mən bilib-bilmədən dostluğun bitməsinə qarşıyam. Nöqsansız dost axtaranlar həmişə dostsuz qalıb.

Həyat mübarizə meydanıdır. Gərək bu ömrü elə mənalı yaşayasan ki, dönüb geri baxanda təəssüflənməyəsən. Axı həyatın elə anları olur ki, o anlarda dost və düşmənini tanıya bilirsən. Məncə dost şad gündə tanınar. Çünki dar gündə hamı yanında olur. Amma sevincli gününə hamı sevinə bilməz. Ailə və dostdan başqa. Sənsə istər şad, istərsə də dar günümdə həmişə yanımda olmusan.

Mən sənə uzun ömür, can sağlığı, xoşbəxtlik

arzulayıram. Sonda dahi bir yazarın dediyi sözləri qeyd etmək istəyirəm:

“Zaman gəlir yollarına qar yağırsa,
Ətrafını hüzün buludları alırsa,
Nə vaxt bir dosta ehtiyacın olsa,
Dost ola bilmədiyim qədər yanındayam”.

***Asəf Məmmədov***

# DOST HAQQINDA DOST SÖZÜ

Ağac kökü ilə güclüdür, insan dostları ilə.

Ata xəzinədir, qardaş dayaqdır, dost isə xəzinədir, həm də dayaqdır. İllərin arxasından boylananda elə bil hər şey dünən olub. Elə bil dünən idi. Döyüş bölgəsində, soyuq səngərdə bir-birimizi isti nəfəsimizlə, bükülməyən dizimizlə qoruduğumuz. Aramızdakı münasibətin dostluğa çevrilməsində ilk imzanı da o illərdə gecənin bağrını dələn qızıl güllələr qoyub. O güllələr ki, vuruşduğumuz səngərdə birimizi hər an tapa bilərdi... Başqalarının qayğısını çəkə-çəkə ömrü başa vuranlar ən gözəl, ən xoşbəxt insanlardır,- deyirlər. Gözəl keyfiyyətlərə malik olmaq azdır. Onlardan istifadə etməyi də bacarmaq lazımdır. Elman Nuriyev qətiyyətli, əzmkar, istənilən şəraitdə vaxtında qərar verən, döyüş taktikasını əla bilən bölük komandiri olub. O, bölükdə tabeçiliyində olan zabit-gizir və əsgər heyətini öz qardaşı və oğlu kimi sevirdi. Bölükdə olan PDM-lər həmişə saz vəziyyətdə döyüşə hazır olardı. Elman Nuriyev təkcə birinci moto-atıcı taburun deyil, həm də N saylı hərbi hissənin sevimlisi idi.

Belə ki, Qazax, Ağstafa rayon sakinləri Elman Nuriyevin komandirlik etdiyi PDM bölüyünə arxalanırdılar. Mülkü həyatda Elman Nuriyev layiqli övlad, təəssübkeş qardaş, vəfalı dost, sədaqətli həyat yoldaşı və qayğıkeş ata kimi tanınır. Mənim könül dostum Elmanın evində bu yurda layiq, elini, obasını, dənizi, günəşi, sazı, sözü sevən iki övlad böyüyür. Uşaq qayğılarını ömürgün yoldaşı Könül xanımın çəkdiyi Banuçiçəyi-Şahnisəsi də, Beyrəyi-Şahmuradı da ata-analarına ümidlərini doğrultmağa çalışırlar.

Düz 20 il əvvəl başlanan bu dostluğa həsəd aparan varmı görən? Bilmirəm, ancaq onu bilirəm ki, 50 yaşı tamam olan Elmanı sanki, lap uşaqlıqdan tanıyıram. Uşaqlarsa heç vaxt yalan danışmırlar.

Hörmətlə: Daha bir 50 ildən sonra səni təbrik etmək arzusu ilə dostun

***Asəf Rzayev***

*22 may 2016. Şirvan şəhəri.*

## TƏBRİK

O mənim cəbhə yoldaşım olub. Birgə uzun bir döyüş yolu keçmişik. Şaxtalı-sızaqlı, istili-bürkülü, kədərli, ağrılı, sevincli günlərimizi birgə yaşamışıq. Həmişə də onun mərd, mübariz insan olduğunu görmüşəm. Onu belə tanıyıb, belə sevmişəm. O vətənini göz bəbəyi kimi sevən insanlarımızdandır. Vətəncanlı, yurdsevər kimi qəlbimdə yuva qurub.

Qəlbimin dərinliklərində ona ünvanlanacaq o qədər sözlər var ki, yazsam kitablara sığmaz. Bu günlər onun şad gününə çox təriflər deyilir. O buna layiqdir, halal haqqıdır.

Əziz dostum, qardaşım Elman səni yubiley yaşın münasibəti ilə təbrik edirəm. Bundan belə də gözəl günlər yaşayasan. Ailənin üstündən əskik olmayasan.

*Dostun:* ***Məmmədov Aydın.***
*22 may 2016-il. Bakı şəhəri.*

# DÜŞMƏNİ KÖRPÜDƏN BURAXMAQ OLMAZDI...

Budur, dəfələrlə haqqında eşitdiyim, döyüş meydanlarında neçə-neçə igidliklərin müəllifi olan Elmanla üz-üzə əyləşmişəm. Tablolarda təsvir olunmuş qəhrəmanlardan fərqli olaraq sakit baxışlarına, bir o qədər də cüssəli olmayan bədəninə baxdıqca, özü haqqında danışmağı sevməyən Elmanın daxili dünyasına boylanıram. Və söhbət etdikcə onun zahiri görnüşü ilə daxili dünyasındakı böyük təzadı hiss etməyə başlayıram. Sən demə, sakit baxışların arxasında vulkanlar püskürürmüş. Sən demə, onun üçün hər şeydən artıq olan Vətən qeyrəti ölümü Elmanın gözlərində adiləşdiribmiş.

**TANIŞLIQ:** Elman Yolçu oğlu Nuriyev Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olub. Gəncə Texnologiya İnstitutunu fərqlənmə diplomu ilə bitirdikdən sonra Bakı zərif mahud kombinatında növbə ustası kimi əmək fəaliyyətinə başlayıb. 1992-ci ilin may ayından torpaqlarımızın müdafiəsi üçün könüllü olaraq hərbi xidmətə gedib. Evlidir. Bir qızı, bir oğlu var.



Elman da çoxları kimi Bakıda, yenicə qurduğu ailəsi ilə birlikdə öz sakit, qayğısız günlərini yaşaya bilərdi. Ancaq günü-gündən şiddətlənən müharibə, cəbhə bölgələrindən gələn məlumatlar buna imkan vermir, onu rahat buraxmırdı. Hər yeni faciə, günahsız xalqın başına gətirilən müsibətlər onun cəbhəyə yollanması haqqında fikrini artıq qətiləşdirmişdi. Elman müharibə odunun içində olmalı, özünü döyüşçü qardaşlarının sırasında görməli idi. Bu günlərin bir günü Elman bütün təkidlərə baxmayaraq, cəbhə bölgəsinə, Qazaxa yollandı.

Hərbi xidmətə başladığı gündən Elmanın döyüş yolları Azərbaycanın bütün cəbhə bölgələrindən keçib. Elman təkcə Qazaxda deyil, Başkənd əməliyyatında, Ağdamda, Ağdərədə, Füzuli, Cəbrayıl rayonlarında dəfələrlə düşmənə ağır zərbələr endirib. Ağdərə döyüşlərinin birini isə o belə xatırlayır:

– Ağdərə uğrunda ağır döyüşlər gedirdi. Düşmən bütün qüvvələri ilə hücuma keçmişdi. Mən PDM ilə mövqedə durmuşdum. Aldığımız məlumata görə, ermənilər gəlib körpüdən keçməli idilər. Məqsədləri də körpüdən keçib, sonrakı

mövqelərimizi darmadağın etmək idi. Körpü ilə tutduğum mövqe arasındakı məsafə çox az idi. Onu da bilirdim ki, əgər onlar körpüdən texnika ilə keçsələr, qarşıdakı mövqelərimizdəki döyüşçülərimizi tamamilə məhv edəcəklər. Çünki onların qüvvələrinə bələd idim. Öz tutduğum mövqe də çox təhlükəli idi. Ancaq nə etməli, geri çəkilmək olmazdı. Mən hökmən, nəyin bahasına olursa-olsun düşmən qüvvələrinə körpüdən keçməyə imkan verməməliydim. Bir neçə dəqiqədən sonra erməni tankları göründü. Tankın arxasınca isə bir PDM gəlirdi. Əvvəlcə tankı nişan aldım. Dəqiq bilirdim ki, əgər tankı vura bilməsəm, onlar məni də, döyüş maşınımı da məhv edəcəklər. Çünki mənim atəşimdən sonra onlar tutduğum mövqenin yerini dəqiqləşdirəcəklər. Birinci atəşlə tankı sıradan çıxartdım. Sonra fürsəti əldən vermədən düşmən PDM-in nişan aldım. İkinci atəş də uğurlu oldu. Mərmi seçdiyim hədəfə dəydi. Tankın və PDM-in arxasınca təxminən 50-yə yaxın erməni döyüşçüsü gəlirdi. Mərmiləri onların üzərinə yağdırmağa başladım. Sonra biz irəlilədik. Ermənilərin mövqelərindən iki ədəd işlək vəziyyətdə olan “Şilka” gətirdik. Ancaq bu gün eşidəndə ki, qan bahasına

müdafiə olunan torpaqlarımız, kəndlərimiz rayonlarımız hansısa bir xəyanətkarın alçaq əməllərinə görə əldən gedir, adam özünə yer tapa bilmir.

Elmanın ürək ağrısını başa düşmək çətin deyil. Çünki torpaqlarımızın hansı qanla, hansı döyüşlər hesabına müdafiə olunmasını o bizdən də yaxşı bilir.

Elman öz qayğılarından, problemlərindən danışmadı. Ancaq döyüşçü yoldaşları ilə söhbətlərindən mənə məlum oldu ki, mənzili olmadığından ailəsi üçün çox narahatdır. Batareya komandiri Elman Nuriyevin zabit rütbəsi almaq məsələsi də hələ bu günə kimi nədənsə həll olunmayıb. Ümid edirik ki, əlaqədar təşkilatlar Vətən üçün hər dəqiqə canını qurban verməyə hazır olan Elmanın problemlərini tezliklə həll edəcəklər.

Elmandan ayrılarkən mənə sözünü dedi:

– Qardaş, Qazax üçün narahat olmayın. Buranı canımızla, qanımızla qoruyacağıq. Rayonumuzda olan bütün əsgər və zabitlər buna hazırdırlar. Çünki bizim geriyə yolumuz yoxdur, arxada Vətəndir. Bizdəki belə ruh yüksəkliyinə, yüksək döyüş hazırlığına görə isə bütün şəxsi heyət polkovnik İsa Sadıqova minnətdardır.



Deyirlər zaman hər şeyi öz yoluna qoyur. Bəli, vaxt gələcək, torpaqlarımız düşmənlərdən təmizlənəcək, müharibə başa çatacaq. Və həmin gün xeyli vaxtdır gözləri yolda qalan körpə Şahnisə isə atası Elmanın qucağına atılıb öz xoşbəxt günlərini yaşayacaq.

Kiçik leytenant

***Ilham Xudiyev***
*"Azərbaycan Ordusu" nun müxbiri.*
*9 sentyabr 1993-cü il.*

# ƏLLİ YAŞIN MÜBARƏK

Ötən illər elə keçir ötür ki,
Ha yüyürsən çatammazsan dalınca.
Neçə ağrı, neçə acı-şirin dad,
Görür insan əlli yaşa çatınca.

Arzulardan arzu doğar deyiblər,
Şahnisənlə, Şahmuradın doğulub.
Hər ikisi abır-həya içində,
Saf istəkdən, məhəbbətdən yoğrulub.

Nəvə Süleymanın şirin gülüşü.
Məlhəm olsun hər ağrıya, acıya.
Yüz yaşda da qohum-qardaş yığışaq,
Təbrik deyək Elman adlı qocaya.

# ONUN ÇƏTİN DÖYÜŞ YOLU

"...Səhər saat 4-ün yarısı idi. "Vışka" deyilən yüksəklikdə mövqe tutmuşduq. Bir də gördük ki, ermənilər Möhrədağ kəndi istiqamətindən güclü hücuma keçiblər. Elə həmin an həyacan siqnalı ilə ayağa qalxdıq. Hərə öz mövqeyində hazır vəziyyətdə dayandı. Düşmən bizim sağ cinahı yarmağa cəhd göstərirdi. Döyüşçülərimiz və biz PDM-dən sərrast atəşlə onların ilk həmləsini dəf etdik. Lakin yenidən hücum başlandı. Bölük komandiri bir dəstə ilə irəli – köməyə gəldilər. Hər tərəf lərzəyə gəlmişdi. Uşaqlar mətanətlə vuru-şurdular. Bir də xəbər gəldi ki, komandiri vur-dular. Tez PDM-i irəli sürdük...İşin tərsliyindən tırtıl yerindən çıxdı. Nə etməli? Təmirçilər gələnə qədər PDM-də olan PKT pulemyotunu götürüb əlverişli bir yüksəklikdə mövqe tutdum. O biri heyət üzvləri də mənim kimi. Güllə yağışı ilə er-mənilləri geri oturtduq. Əsas da o idi ki, uşaqlar-dan heç birisi özünü itirmədi. Bu döyüşdə düş-mənin iki PDM-ini, xeyli döyüşçüsünü məhv etdik". Bu bölük komandiri zabit Elman Nuruyevin keçdiyi döyüş yolundan özünün danışdığı epizod-

lardan biridir. Onun əsl Azərbaycan döyüşçüsünə, zabitinə məxsus inamı, nikbinliyi, ilk baxışdan hiss edilən hərbiçiyə xas intizamı səliqəli geyimi adamın ürəyini açır, iftixar hissi keçirirsən. Diviziya komandiri zabit Müzəffər Bəkirov da onun haqqında ürəklə danışır:

– Elman hissəmizin ən təcürbəli və bacarıqlı döyüşçülərindəndir. Bu iki il yarımda ən ağır şəraitdə qanlı döyüşlərdə iştirak etmişik. Elman həmişə öz soyquqanlılığı, texnikadan mükəmməl istifadə etməsi ilə fərqlənib. Bu adamda qorxu hissi demək olar ki, yoxdur.



...Nuriyev Elman Yolçu oğlu 1966-cı ildə Qazaxın İkinci Şıxlı kəndində doğulub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Texnologiya İnstituna qəbul olunub. 1985-ci ildə hərbi xidmətə çağrılan Elman iki il ərzində PDM-in tuşlayıcı-operatoru ixtisasına mükəmməl yiyələnir. Hərbi xidmətdən sonra təhsilini fərqlənmə diplomu ilə başa vuran E. Nuriyev 1990-cı ildə Bakı Zərif Mahud kombinatında işləməyə başlayır.

Vətən torpaqlarının təcavüzə məruz qaldığı vaxtlarda Elman burada qərar tuta bilmir. Dərk edir ki, indi "hünər vaxtı, qeyrət dəmidir". Vaxtıilə tam yiyələndiyi hərbi ixtisas indi Vətən üçün hava, su kimi gərəkdir. Odur ki, doğma kollektivlə, Bakı ilə müvəqqəti olaraq vidalaşıb. 1992-ci ilin may ayından ordu sıralarına yollanır. "N" hərbi hissəsinin PDM bölüyünə qəbul olunur. Elə ilk günlərdən ən qaynar nöqtələrdə öz PDM-i ilə döyüşlərə qatılır. Qazaxın Fərəhli, Quşçu Ayrım, Şıxlı kəndlərində sərrast atəşlə düşməni susdurur. Bir az sonra o, tağım komandiri vəzifəsinə irəli çəkilir. Lakin yenə çox sevdiyi peşəsindən əl çəkmir.




1992-ci ilin oktyabrın axırlarında Fərrux dağı uğrunda, Çıldıran döyüşlərində iştirak edir. Həmin ilin dekabrın 31-in özünün ən hüznlü günlərindən sayır Elman. Həmin gün ermənilərin Qazaxa hücumu nəticəsində o, özünün 6 nəfər ən cəsur döyüş dostunu itirmişdir. Lakin Elman sarsılmır, düşməndən qisas almaq arzusu onu daha da alovlandırır. 1993-cü il fevralın 20-də Ağdərədə gedən döyüşlərə atlılr. Həmin vaxt Sərsəng su anbarı yaxınlığında qızğın döyüşlər gedirdi. O, öz PDM-i ilə düşmənin bir tankını, bir PDM-ini sıradan çıxarır, onlarca düşməni gəbərdilir. Bundan

başqa həmin döyüşlərdə ermənilərin iki ədəd "Şilka" qurğusu və bir ədəd "Ural" avtomaşını ələ keçirildi.

Daha sonra 1993-cü il iyun ayında bu qazaxlı balası Ağdamın Yusifcanlı, Mərzili kəndləri uğrunda döyüşlərdə iştirak edir. Verilən tapşırığı yerinə yetirir.



Məğlubiyyətlərimizə münasibətdə onun öz qənaətləri var. Belə ki, o, bəzi komandirlərin səriştəsizliyi və çevik qərarlar çıxara bilməməsi ilə

əlaqələndirir bunları. Lakin bir hərbiçi kimi, - mən siyasətə qarışmıram, - deyir. Atəşkəsdən istifadə edərək Elman bir bölük komandiri kimi, öz təcrübəsini döyüşçülərə öyrədir, taktiki hazırlığa ciddi fikir verir. Əsgərlərin qələbəyə inamını artırmağa çalışır. Onun ən böyük arzusu torpaqlarımızın tezliklə azad olunmasıdır və o, buna inanır. Hər gün döyüşə atılmağa da hazırdır. İndi onun yolunu qardaşları Telman və Nəriman da davam etdirirlər. Hər ikisi düşmənlə üz-üzə səngərdədirlər. İki övlad atası Elman Vətənin üzərindən qara buludlar çəkilməyincə əynindən zabit formasını çıxarmayacağına, əlindən silahını yerə qoymayacağına and içib.

***İ. İsmayılov***
*Hərbi jurnalist*
*"SƏRHƏD" qəzeti*
*14 aprel 1995-ci il.*

## Keçmiş PDM bölüyü komandiri Elman Nuriyevin

## DÖYÜŞ XATİRƏLƏRİ

Onu hərbi xidmətdə olduğum zamandan – Qazaxdan tanıyırdım. Nizam-intizamlı, tələbkar və ən əsası qorxmaz döyüşçü – komandir idi. Hətta müharibə illərində, pərakəndəlik dövründə belə onun rəhbərlik etdiyi birləşmə nizam-intizamlı, səliqəsi və hazırlığı ilə seçilirdi. Amma onun ən üstün cəhəti döyüşlərdə sınaqdan çıxmış nişançı olması idi. Köhnə döyüşçülər onu "BMP-nin atası" adlandırırdılar. Poliqonda hər dəfə sınaq atışlarında hamı bilirdi ki, komandir dəqiq hədəfi vuracaq. Elə vururdu da... Çünki bu vuruşlar Ağdərədə, Ağdamda gedən döyüşlərdə sınaqdan çıxmışdı.

Elman Nuriyev 1966-cı ildə Qazax Rayonunun İkinci Şıxlı kəndində anadan olub. Gəncə Texnologiya İnstitutunu bitirib. Keçmiş Zaqafqaziya Hərbi Dairəsinin əvvəlcə Gürcüstanda, daha sonra Ermənistanda yerləşən hərbi

hissələrində (indiki Gümrü hərbi bazası) xidmət edib. Piyadaların Döyüş Maşını (PDM, rus variantında BMD) üzrə ixtisaslı komandir – nişançı olub. Qarabağ savaşına könüllü qatılan E. Nuriyev tezliklə Qazax, Ağdərə, Ağdam istiqamətlərində gedən döyüşlərdə iştirak edir, əsgər kimi xidmətə başlasa da, sonra zabit rütbəsi alaraq bölük komandirliyinə qədər yüksəlir.

"1992-ci ilin əvvəli idi. Gəncədə institutu bitirib təzə Bakıya gəlmişdim. Yataqxanada yaşayırdım. Könüllü olaraq çağırış məntəqəsinə getdim. Orada elan etdilər ki, PDM mütəxəssisləri lazımdır. Mən də qabağa çıxdım. Bizi gətirdilər Qaraheybətə. O zaman Qaraheybətdə batalyonlar yığılıb komplektləşdirilərək cəbhəyə göndərilirdi. Biz 12 nəfər PDM mütəxəssisləri idik. Bir neçə gün idi ki, təlim mərkəzində idik, bölük komandirləri arasında narazılıq oldu. Komandirlə xırda mübahisə etdiyim üçün hissənin komandiri rusca əmr etdi ki, "bunu qaynar nöqtəyə göndərin". Elə həmin gün məni Qazaxa göndərdilər. Qazaxa da gələn gün mənim PDM komandiri – nişançı olduğumu öyrənən kimi qızğın döyüşlərin davam etdiyi Fərəhli, Quşçu-

Ayrım kəndləri istiqamətinə yolladılar. Beləcə ilk gündən döyüşlərə atıldıq".

E. Nuriyev deyir ki, Qazaxda hərbi texnikanın çox olması səbəbindən 1992-ci ilin yayında bir qismini Qarabağ cəbhəsinə - Ağdərə və Ağdam istiqamətində döyüşlərə göndəriblər. Ağdərənin azad edilməsi, Xankəndi şəhərinin bir neçə kilometrliyinə qədər irəliləyən Azərbaycan ordusunun zirehli qüvvələrində döyüşən E. Nuriyev Ağdamda ermənilərə qarşı əməliyyatlarda iştirak edib. Gəncə qiyamı zamanı Qazax hərbi hissəsinin tərkibində qiyamçıların Seyfəli poliqonundakı hərbi hissənin əsgərlərinin zərərsizləşdirilməsində iştirak edib. Daha sonra isə Qazaxda xidmətini davam edib, motoatıcı bölüyün komandiri olub. 2000-ci ildə ordudan istefa verib. Hazırda Bakı şəhərində yaşayır.

Elman Nuriyevin döyüş xatirələrinin böyük qismi Ağdərə əməliyyatı ilə bağlıdır. Bununda özünəməxsus səbəbləri var. Keçmiş komandir deyir ki, Ağdərə əməliyyatı hücum və qələbə əməliyyatı idi. Milli ordu məhz Ağdərə əməliyyatı zamanı böyük bir əraziləri düşməndən azad edib, erməni silahlı birləşmələrinə böyük

zərbələr vurub. Bundan başqa Elman Nuriyev Ağdərə döyüşlərində bir gündə düşmənin iki hərbi texnikasını – tank və PDM-ni vuraraq məhv edib. Keçmiş döyüşçü Ağdərə xatirələrini xüsusi şövqlə danışır.

"Ağdərə əməliyyatı zamanı biz hücumda idik və sürətlə irəliləyirdik. O zaman orduda ruh yüksəkliyi vardı, kəndlər bir-bir alınır, biz sürətlə Xankəndinə yaxınlaşırdıq. Vəng kəndinə qədər gedib çıxdıq. Ermənilər bu hücumları gözləmirdilər. Evlərini hər şeyi ilə birlikdə qoyub qaçmışdılar. Amma sonra qəflətən dayandıq, mən o zaman kiçik rütbəli şəxs idim, döyüş xəttində yuxarıdan hansı əmrlərin, hansı məqsədlə verildiyini bilmirəm. Amma onu bilirəm ki, bizim sürətli hücumlar dayandı və biz geri çəkildik".

Elman Nuriyev Ağdərə əməliyyatı zamanı bir erməni tankı və bir PDM-ni vurulması hadisəsini danışır: "Ağdərədə Sərsəng su anbarının üzərindən keçən yolu qoruyurduq. Bəndin kənarında döyüş mövqeyi düzəldilmişdi, bizim bir PDM və bir tankımız vardı, bir də xeyli sayda avtomatlı əsgərlər. Ermənilər o əraziyə xüsusi əhəmiyyət verdikləri üçün tez-tez hücuma keçir,

bizi ordan çıxarmağa çalışırdılar.

Erməni tankı, arxasınca PDM səngərin arxasından çıxır bizə doğru atəş açır və geriyə öz mövqeyinə çəkilirdi. Növbəti atəş ərəfəsində sürücüyə maşını irəli sürməsini əmr etdim. Atəş mövqeyinə çıxan kimi PDM-2-dən erməni tankını zirehdələn mərmilərlə atəşə tutdum. Tank vurulsa da geriyə çəkildi, amma erməni PDM-nin heyəti qısa müddətdə sanki özlərini itirdilər, nə irəli, nə də geri hərəkət etdilər. Bu anda PDM-i atəşə tutdum və maşın alışdı. Amma həm biz, həm də vurulan erməni texnikası geri çəkildi. Tank və PDM-lə yanaşı iki "şilka" qurğusu da vurulmuşdu, amma onlar işlək vəziyyətdə idi. Axşamüstü bizim texnikalar "şilka"ları aparmağa gələndə məlum oldu ki, ermənilər vurularaq yanıb yararsız hala düşən tank və PDM-i qoyaraq geri çəkiliblər".

E. Nuriyev deyir ki, Ağdərə əməliyyatları zamanı qəhrəmancasına savaşan Vəzir Orucovun dəstəsi ilə birlikdə Sərsəng su anbarının geri alınmasında iştirak edib: "Erməni qüvvələri Sərsəngi almaq üçün davamlı olaraq mövqelərimizə hücum edirdilər. Sonuncu dəfə bizim

mövqeləri o qədər güclü top və minaatan atəşinə tutdular ki, bizimlə olan piyada batalyonun əsgərləri gölə atılaraq qaçmağa başladı. Mövqelərdə yalnız zirehli texnika, yəni bir tank, 3 PDM və az sayda əsgər qaldı. Beləcə geri çəkilməli olduq. Təxminən 3 kilometr geri çəkilərək yeni mövqelərdə dayanmışdıq. Bu zaman kiçik bir silahlı dəstə gəldi, ortada isə balacaboy, əlində pulemyot olan biri vardı. Yaxınlaşıb texnikaların komandiri kimi məndən texnikanın vəziyyətini soruşdu, hazırlıqlı olduğumuzu dedim. Gələnin Vəzir olduğunu dedilər.

Beləcə Vəzir komanda verdi gələn döyüşçülər bizim texnikanın üzərinə mindilər və biz geriyə qayıtdıq. Anbarda əvvəlki mövqelərimizə yerləşdik. Biz burdan döyüş mövqeyinə çıxaraq PDM-1 və PDM-2 ilə erməni mövqelərinə yaylım atəşi açmağa başladıq. Rabitə qurğularımızı uyğunlaşdırmışdıq. Vəzirgili dinləyirdik. Yaylım atəşinin ardınca əlimiz tətikdə dayanıb hücum əmrini gözləyirdik. Vəzir və dəstənin qoçaqlığı hələ də gözümün qabağındadır. Rabitə ilə biri birinə deyirdilər ki, atmayın, ermənilərin başlarının üstünü alana qədər atmadan yaxınlaşdılar

və ermənilərin başlarının üstünü qəfil aldılar. Ermənilər isə qəfil hücumdan özlərini itirərək özlərini gölə atdılar. Orda xeyli sayda erməni öldürüldü və mövqelərimizi yenidən geri aldıq".

"Qlobus" adlanan yüksəklikdə ermənilərlə böyük savaş oldu. "Vışka" deyilən ərazi çox mühüm strateji əhəmiyyətə malik mövqelər sayılırdı. Bu artıq Sürət Hüseynov qiyamının başladığı, Ağdərənin itirildiyi günlər idi. "Vışka" döyüşlərində mövqe üstünlüyünə malik idi. Ilk hücumu biz etdik və 6-7 erməni tankı və PDM-ni ələ keçirdik. Bu çox uğurlu əməlliyyat idi. Amma bu əməliyyat erməniləri dayandırmadı, əksinə hücumlar daha da intensivləşdi. Üç gün sonra çox güclü artilleriya dəstəsi ilə ermənilər hücuma keçdilər və bizim cinah postu, oradakı 2 PDM-i ələ keçirdilər. Cəbhədə yalnız mənim komandir olduğum PDM-2 qaldı. Ancaq hücumlar davam edirdi və çox inadla hücumları davam etdirirdilər. Hücumun şiddətli anlarında manevr edərək bizim PDM tırtılları çıxdı. Tərtərə müraciət etdik, gəlib PDM-in tırtılların təmir etdilər. Amma buna qədər PDM-in üzərindəki pulemyotu çıxararaq hücum edən ermənilərə

qarşı atəş açdım. Bir gün məhz bu vasitə ilə müdafiə olunduq. Hücum edən erməni PDM-in üzəri dolu erməni əsgərləri ilə birlikdə vurduq. Amma bütün müdafiə tədbirlərinə baxmayaraq ermənilər hücumlara ara vermədi. Bir də artıq Azərbaycanda siyasi vəziyyət qarışmışdı, hərbi komandanlıq qətiyyətli addımlar ata bilmirdi”.

Gəncə qiyamı zamanı Qazaxdan Gəncəyə göndərilən hissədə olan Elman Nuriyev Surət Hüseynov qiyamının Azərbaycan ordusunun döyüş ruhunu, ümumilikdə dövlətə böyük zərbə olduğunu deyir. Onun Gəncə qiyamı ilə bağlı qeyd etdiyi bir detalı yazmamaq mümkün deyil: “Surət Hüseynovun qiyamı zamanı biz Qazaxdan Tərtərə gedə bilmirdik. Məcbur olub mülkü geyimdə keçirdik Gəncədən. İyun hadisələri zamanı Qazaxdan qiyamın yatırılması üçün göndərilən texnikada biz də vardıq. Qazax briqadasının komandiri İsa Sadıqov idi.

Çox yaxşı komandir, anadangəlmə hərbiçi idi. Onun komandanlığı altında çoxlu əməliyyatlarda iştirak etmişik. Gəncə hadisələrində də bizim komandir idi. Gəncədə hər şey başqa cür də ola bilərdi. Seyfəlidəki hərbi hissə asan

təslim olsa da, Gəncənin içindəki hərbi hissə təslim olmadı. Bütün texnikalar, hərbi qüvvələr, zirehli texnika hərbi hissəni müsirəyə almışdı. “Vur” əmrini gözləyirdik. Amma bir qədər sonra bizi geri çəkilməklə bağlı əmr verildi, Gəncədən çıxanda Surət Hüseynova tabe olan PDM-lə qarşılaşdıq. “Ağ bayraq” qaldırmışdı, bizə də atmamaq əmr olundu. Amma üzbəüz gələndə ötüb keçənə qədər hər ikimiz topun lüləsini bir-birimizə tuşlamışdıq. Bu, çox ağır səhnəydi, hər iki tərəfdə dünənə qədər bir səngərdə vuruş-duğumuz insanlar bir-birimizə silah tuşlayaraq keçirdik. O səhnəni unuda bilmirəm”.

Atəşkəs illərində Elman Nuriyev Qazaxdakı hərbi hissədə əvvəlcə tağım, daha sonra bölük komandiri olaraq xidmət edib: “Qazaxda hərbi texnika güclü idi. 1991-92-ci illərdə Qazaxda yerli camaat pul yığırdı. Bakıdan da pul gön-dərirdilər. Yığılan pullarla Gürcüstandan tank, PDM, eləcə də silah-sursat alınırdı. Bizimkilər gedib Tiflisdə yerləşən SSRİ PDM zavodundan alırdılar. Zavodda isə pul qarşılığında bu tex-nikaları “silir” bizimkilər də alıb keçirirdilər Azər-baycana. Bizdə Qazaxda bir qrup texnikalar

vardı, o zaman Tiflisdə PDM zavodunda işləyib təcürbə toplamışdılar. Onlar gələn PDM-ləri saz vəziyyətə gətirirdilər. Beləcə bir ilin içində Qazaxda böyük sayda hərbi texnika toplanmışdı”.

*“Yeni Müsavat” qəzeti.*
*29 mart 2014.*

# SÖZ ARDI

İnsanlar tükənməz arzularının cəfakeş sarvanı kimi, günəşin işığından, torpağın bərəkətindən güc aldıqca əbədi dünyada öz ömrünü yaşayıb iz qoymaq üçün neçə milyon ildir ki, yol gəlir. Bu səfərin yolçusu olan insanlara tale yazan zamandır, tarixi yaradan və yazan isə insandır.

Kitab boyu qəhrəmanımızın ömür yoluna çox işıq salıb, ötüb-keçənləri, həyat hekayətlərini sizə çatdırmaq istədik. Elman Nuriyev dünyasına səyahət etməyimiz bizə çox şey öyrətdi. Məsələn, qohumcanlılıq, dostcanlılıq, yoldaşlıq etmək, vətən sevgisi, el-oba məhəbbəti, sədaqət, ailəcanlı, əxlaq, tərbiyə və s. neçə-neçə insana gərək olan hər şeyi.

– Çaşqınlıqdan uzağam. Vicdanımı hərrac bazarına çıxarmaq mənim əqidəmə yad, həmişəlik yad olub. Ağa qara demədən doğru, düzgün danışa-danışa yaşayıram bu fani dünyada – deyir Elman Nuriyev.

Həyatın mənasını və əmək fəaliyyətinin əsasını yaxşılıq etməkdə bilən ağsaqqal, savadlı, mədəni, həddindən artıq sadə və tələbkar Elman

Nuriyev 50 yaşında da şux və gözəl görünür. Bu sadəliyin içində müdriklik, dədəlik özünü göstərməkdədir. Onu da qeyd edək ki, türk insanında dədəlik, ağsaqqallıq elə seyidlikdir. Hər yaşı 50-60—70-80 olanlar ağsaqqal ola bilmir, dədə çağrılmır. Elmanın oturuşu, duruşu, sözü-söhbəti elə başdan-başa ağsaqqallıqdır. Mən kitabın yazılışı ərəfəsində ünsiyyətdə olduğum insanlar bunu dönə-dönə vurğuladılar.

Onun qazandığı bütün məhəbbətlər, etdiyi yaxşılıqlar onun var-dövlət qazancıdır. Oğlu Şahmurad deyir ki, atamın etdiyi yaxşılıqları, xeyirxahlıqları mən bir başqasından, adlarını bilmədiyim, özlərini tanımadığım insanlardan mənə qarşı çevriləndə qəlbim qürur hissi keçirir.

Kitabın ideya müəllifləri Elman Nuriyevin həyat yoldaşı Könül xanım, övladları Şahnisə və Şahmuraddır. Kitabın yazılışı ərəfəsində onların mənəvi dəstəyini hər zaman hiss etdim. Elman Nuriyevin tanısam da, onunla dəfələrlə toy, yas məclislərində ünsiyyət qurub söhbət etsəm də bu kitabın yazılışı ərəfəsində onunla görüşmək imkanım demək olar ki, olmadı.

2016-cı il Elman Nuriyevin ailəsi üçün bir neçə

səbəbdən əlamətdardır.Bu kitab yubiley yaşına həsr olunsa da, həm də onun ailə qurmasının 25 ili tamam olur. Şahmurad bu il Türkiyədə təhsilini başa vurub vətənə dönür. İnanırıq ki, mütəxəsis kimi qazandığı biliyi vətənin quruculuğuna həsr edəcək.

50 yaşın mübarək olsun, vətən oğlu. Elə sonluğu da bu ruhda şeirlə tamamlayıram:

Xəzəllər coşub-daşar,
Çeşmələr yazıqlaşar.
Ağacda boş yuvalar,
Durnalar uzaqlaşar,
Ömrün əlli yaşında.

# MÜƏLLİF HAQQINDA

## *AYAZ İMRANOĞLU*

(Abbasov Ayaz İmran oğlu)

1959-cu ildə Zəngilan rayonunun Zərnəli kəndində doğulub. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. “Edam kötüyüdür dünya”, “Kədərdə də nəşə varmış”, “Həqiqətim – Mütləqimsən”, “Gəlinbacı nağılı”, “Köz götürdüyüm ocaqlar”, “Milli məfkurə yolçusu” və başqa kitabların müəllifidir. “Əlli yaşın mübarək, Vətən oğlu” kitabı oxucularla 21-ci görüşüdür.

Ayaz İmranoğlunun şeirləri müxtəlif almanaxlarda çap olunub. Rus, İngilis, fars dillərinə tərcümə olunub.

“İnamın Gəlişi” ədəbi, fəlsəfi, ruhsal qəzetin Baş redaktorudur.





*Nuriyev Elmanın atası Yolçu, anası Roza*



*Bacısı Hicran, həyat yoldaşı Cümşüd ilə*



*Elmanın xanımı Könül*




*Oğlu Şahmurad*



*Elmanın ailəsi: qızı Şahnisə, nəvəsi Süleyman, kürəkəni Tural, xanımı Könül*



*Elmanın qızı Şahnisə, kürəkəni Tural, nəvəsi Süleyman*



*Elman bəy nəvəsi ilə*



Nəvəsi Süleyman




Elman bəyin ailəsi



Xanımı Könül, oğlu Şahmurad



Oğlu Şahmurad



Oğlu dostları və tələbə yoldaşları ilə





*Elman bəy oğlu ilə*



Elman bəy nəvəsi ilə



Elman bəyin qızı ailəsi ilə



*Elman bəyin qardaşı Nəriman, Etibar xanımı ilə*




*Elman bəyin qardaşı Etibar ailəsi ilə*



*Elman bəyin qardaşı Telman xanımı Durdanə ilə*




*Elman bəyin xanımının ailəsi*





*Elman bəy qızı Şahnisə ilə*



*Elman bəy*



*Elman bəy döyüşdə*



*Elman bəy döyüş zamanı*



Elman bəyin komandir yoldaşları: Asəf və Aydın bəy



Elman bəyin döyüş dostları Adil və Ehtiram bəy



Elman bəyin 27 illik dostu Asəf Məmmədov

# MÜNDƏRƏCAT

50 yaşın romantikası (ön söz Mütəllim Həsənov)..... 3
Sözönü.......................................................... 7
İzlər ........................................................... 10
Tərcümeyi – hal ............................................ 14
Ata ............................................................. 17
Ana ............................................................ 20
Bacı sözü şirin olar ....................................... 22
Ailə............................................................. 24
Nəvəm dil açdıqca dilim açılır.......................... 32
Doğmaları ................................................... 35
Vəfalı dost.................................................... 42
Ad günün mübarək ........................................ 46
Qəlbimizdəsən.............................................. 48
Xoşbəxt adam............................................... 49
Allah sənə dəyməsin ..................................... 50
Ot kökü üstündə bitər .................................... 51
Bol-bol təbrikim var........................................ 53
Qardaşlarımdan biridir Elman.......................... 54

Dostum Elman .......................................................... 55
Dost haqqında dost sözü ......................................... 58
Təbrik ...................................................................... 60
Düşməni körpüdən buraxmaq olmazdı… ................. 61
Əlli yaşın mübarək .................................................. 68
Onun çətin döyüş yolu ............................................ 69
Keçmiş PDM bölüyü komandiri Elman Nuriyevin döyüş xatirələri .......................................................... 75
Söz ardı .................................................................... 85
Müəllif haqqında ...................................................... 88

# Ayaz İmranoğlu

# “Əlli yaşın mübarək, Vətən oğlu”

Bakı, “MBM”, 2016, 112 səh.

Naşir: Afər Fəttahova
Bədii redaktor: Vüqar Sadayev
Texniki redaktor: Şakir Fəttahov
Dizaynerlər: İradə Əhmədova, Mirabdulla Babayev
Operator: Tərlan Quliyeva

Yığılmağa verilib: 01.07.2016
Çapa imzalanıb: 22.07.2016
Ofset çap üsulu ilə
Tiraj 1000, şərti çap vərəqi 7
Kitab “MBM” nəşriyyat-poliqrafiya
mətbəəsində çap olunmuşdur.
Bakı, Mətbuat pr., 529
Tel.: (99412) 539-75-06